# Azərbaycanda 1165 şəxs insan alverinin qurbanı olub

Bununla bağlı 607 şəxs cinayət məsuliyyətinə cəlb olunub



**Son 17 ildə insan alveri ilə bağlı 1916 cinayət aşkarlanıb.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin sabah-aprelin 29-da keçiriləcək birgə iclasında müzakirəyə çıxarılacaq Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2021-ci il üzrə illik məlumatında əksini tapıb. Sənəddə qeyd edilib ki, bununla bağlı 607 şəxs cinayət məsuliyyətinə cəlb olunub, həmin əməllərin 1165 qurbanı müəyyən edilib.



## Goranboy sikələndi

**Dünən Goranboyda zəlzələ olub.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb. Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yeraltı təkanlar yerli vaxtla saat 22:22-də Gəncə stansiyasından 40 km cənub-şərqdə Goranboy rayonunda qeydə alınıb. Təbii hadisə 3 maqnitudada baş verib, zəlzələ ocağı 17 km dərinlikdə yerləşib. Zəlzələ hiss olunmayıb.


№ 75 (5597), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 aprel 2022-ci il (cümə)




# Bakıda qəzalı binaların sayı 1000-ə yaxınlaşır

Bu məsələ bu gün kəskin olaraq gündəlikdə durub

**Hazırda Bakıda qəzalı vəziyyətdə olan binaların sayı 1000-ə yaxınlaşır.**

Bunu jurnalistlərə açıqlamasında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.

"Bütün rayonlarda az-çox bu cür qəzalı vəziyyət olan binalar mövcuddur. Bu məsələni daha dərindən öyrənmək məqsədilə artıq komissiya yaradılıb. Komissiyaya vaxt ayrılıb. Bir ay ərzində rayon icra hakimiyyətinin fəal iştirakı ilə onlar məlumatı toplayıb bizə təqdim etməlidirlər. Nə az, nə çox qəzalı vəziyyətdə olan binaların sayı 1000-ə yaxınlaşır.

Orta hesabla hər binada 100-200-ə qədər ailə məskunlaşır. Bu məsələ bu gün kəskin olaraq gündəlikdə durub. Baxmayaraq ki, son illər Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bu binaların sayı 30 % azalıb. Bu da bir nailiyyətdir. Amma yenə deyirəm qəzalı vəziyyətdə olan binaların sayı çoxdur. İlkin olaraq işə daha pis vəziyyətdə olan qəzalı binalardan başlamalıyıq", - deyə o əlavə edib.



## Görüş mayın 3-də Vyanada baş tutacaq

Türkiyə-Ermənistan dialoqu üzrə növbəti görüşün vaxtı açıqlanıb

**Türkiyənin xüsusi nümayəndəsi Sərdar Kılıç və Ermənistanın xüsusi nümayəndəsi Ruben Rubinyan arasında növbəti görüşün vaxtı bilinib.**

Türkiyə Xarici İşlər Nazirliyi (XİN) xəbər verir ki, xüsusi nümayəndələrin növbəti görüşü mayın 3-də Vyanada baş tutacaq.

Qeyd edək ki, bundan öncə görüşün Vyanada keçiriləcəyi açıqlansa da, vaxt bilinmirdi.

Xatırladaq ki, xüsusi nümayəndələrin birinci görüşü Moskvada, ikinci görüşü Vyanada baş tutub. Bu, sayca üçüncü görüş olacaq.

## Həftəsonuna kimi təmaslar başlayır

Rusiya XİN: Bakıda Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı müzakirə aparılacaq



**Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı bu həftənin sonuna kimi təmaslar planlaşdırılıb.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə bildirib.

"O ki qaldı sərhəd məsələsinə, bu həftənin sonuna kimi Bakıda Xarici İşlər Nazirliyinin xətti ilə təmaslar planlaşdırılıb. Biz mütləq bununla bağlı əlavə məlumat verəcəyik", - Rusiya XİN sözçüsü vurğulayıb.

Zaxarova yaxın vaxtlarda Cənubi Qafqaz regionunda kommunikasiyaların, iqtisadi əlaqələrin açılması ilə bağlı Üçtərəfli İşçi Qrupun növbəti iclasının keçirilməsinin tərəflərlə razılaşdırıldığını da vurğulayıb.

# Sumqayıtda dəhşətli yanğın

Alovun söndürülməsinə helikopterlər cəlb edilib



Ərazidəki işçilər və mülki şəxslər təhlükəsiz yerlərə evakuasiya olunub

**Dünən Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində "Azərsun Sənaye Parkı"nın ərazisində yanğın baş verib.**

Məlumatla əlaqədar FHN-nin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri çağırış üzrə cəlb olunub.

Yanğının söndürülməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Hadisə yerinə yanğınsöndürən maşınlardan əlavə, 2 helikopter cəlb edilib.

Ərazidə yanğının söndürülməsi və həmin ərazidəki işçilər və mülki şəxslərin təhlükəsizliyinin təmin olunması ılı bağlı zəruri tədbirlər görülür.

(səh.2)

# İzdiham görünmür

Ermənistan müxalifəti dönüş yarada bilməyəcək



**Ermənistan paytaxtı İrəvanda Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə etiraz aksiyaları davam edir.**

Müxalifət onun başçılıq etdiyi hökuməti Qarabağ məsələsində "yolverilməz güzəştlərə getməkdə" ittiham edir. Paşinyanın "fərsiz siyasəti" sayəsində Ermənistanın yeni təhdidlərə düçar olduğu və hətta dövlətçiliyi itirmək təhlükəsi ilə üzləşdiyini bildirirlər.

(səh.4)



## Ötən il sənədləri olmayan 1000-ə yaxın uşaq aşkarlanıb

**2021-ci ildə qeydiyyat şöbələrinin və onları bu işə cəlb etdikləri icra nümayəndəliklərinin birgə fəaliyyəti nəticəsində əvvəlki illərdə doğulmuş, lakin müvafiq sənədləri olmayan 972 uşaq aşkarlanıb.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin sabah-aprelin 29-da keçiriləcək birgə iclasında müzakirəyə çıxarılacaq Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2021-ci il üzrə illik məlumatında əksini tapıb.

*Sənəddə qeyd edilib ki, həmin uşaqlardan 937-si qeydə alınıb, digərlərinə doğum faktorunun müəyyən edilməsi ilə bağlı məhkəməyə müraciət olunmasında hüquqi yardım göstərilib.*

## Cəmi 1 nəfəri vəfat edib

Daha 11 nəfərdə koronavirus aşkarlandı




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 11 yeni yoluxma faktı qeydə alınıb, 34 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 792 545 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 728 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, aktiv xəstə sayı 108 nəfərdir.

Ölkədə son sutka ərzində 3 088 , hazırkı dövrədək isə 6 808 651 test aparılıb.

## 57 insan alveri qurbanı ailəsinə qaytarılıb

**Keçən il 95 insan alveri qurbanından 57-si ailəsinə qaytarılıb.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin sabah-aprelin 29-da keçiriləcək birgə iclasında müzakirəyə çıxarılacaq Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2021-ci il üzrə illik məlumatında əksini tapıb.

*Sənəddə qeyd edilib ki, qurbanların uşaqları da diqqətdə saxlanılıb. Onların övladlarının 9-nun validеyni müəyyən edilib, aliment alması təmin olunub.*



## Qarabağın çilingərə, bənnaya, qaynaqçıya da ehtiyacı var

Elman Məmmədov: "İşğaldan azad edilmiş rayonlarımızda təkcə xaricdən gələnlər işləməməlidir"

(səh.4)

## Payızda pandemiyanın bitdiyi elan olunacaq

Mövsümi olaraq infeksion, hava-damcı xəstəliklərinin sayında artım olması həmişə təbii hal hesab olunub



(səh.3)




# “Zərifə Əliyeva" gəmi-bərəsi istismara verildi

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ”Ro-Pax” tipli ”Zərifə Əliyeva” gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib.**

Azərtac xəbər verir ki, ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına ”Zərifə Əliyeva” gəmi-bərəsi barədə məlumat verdi.

Bildirildi ki, gəmi-bərənin layihəsi ötən ilin əvvəlində istismara verilən ”Ro-Pax” tipli ”Azərbaycan” gəmi-bərəsi ilə eynidir. Otuz nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. ”Azərbaycan” və ”Zərifə Əliyeva” gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Dünyanın aparıcı istehsalçılarının müasir avadanlıqları ilə təchiz olunan gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər vardır.




Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən rəmzi lenti kəsdi.

Xatırladaq ki, ötən ilin martında Süveyş kanalının bağlanması nəqliyyat dəhlizlərinin şaxələndirilməsi məsələsini beynəlxalq gündəlikdə önə çıxarmışdı. Hazırkı geosiyasi təlatümlər fonunda isə bu məsələ aktuallığını xüsusilə artırıb. Buna görə də Şərq-Qərb-Transxəzər dəhlizi xüsusilə cəlbedici görünür və Azərbaycan da yeni çağırışlara adekvat olaraq infrastrukturunu yaxşılaşdırır.

Gəmi-bərənin ”Zərifə Əliyeva” adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir. Gəmi-bərədə akademik Zərifə Əliyevanın elmi axtarışlarını, qazandığı uğurları, insanlara xeyirxah münasibətini, bir sözlə, fədakarlıqla dolu həyat və fəaliyyətini əks etdirən guşə yaradılıb. Guşədə akademik M.İ.Averbax adına mükafatın ilk qadın laureatı olan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyeva haqqında foto və video məlumatlar, kitablar toplanıb.

Gəmi-bərə ilə tanış olan Prezident İlham Əliyev daha sonra onun işə salınmasını bildirən düyməni basdı.

Qeyd edək ki, ”Zərifə Əliyeva” gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olan ASCO-nun digər bərələri ilə birgə yükdaşımalara, eləcə də əlverişli coğrafi mövqeyə malik ölkəmizin tranzit potensialının reallaşdırılmasına mühüm töhfə verəcək. Dünya standartlarına cavab verən belə bir bərənin Azərbaycanda inşa olunması bir tərəfdən dövlətimizin qüdrətini, iqtisadi müstəqilliyini nümayiş etdirirsə, digər tərəfdən onu göstərir ki, ölkəmiz böyük sənaye potensialına və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın yeni inkişaf mərhələsində uğurla addımlayır.

Pandemiyanın qlobal iqtisadiyyatda yaratdığı tənəzzülə baxmayaraq Azərbaycan iqtisadi inkişafını, o cümlədən beynəlxalq nəqliyyat dəhlizlərində artan roluna uyğun olaraq uğurla həyata keçirilən infrastruktur layihələrini davam etdirir. Təsadüfi deyil ki, bu gün ölkəmiz istər Şərq-Qərb, istər Şimal-Cənub dəhlizlərinin mühüm ”hab”ına çevrilib. Prezident İlham Əliyevin nəqliyyatın, o cümlədən gəmiçiliyin inkişafına xüsusi diqqəti də Azərbaycanın bu sahədə potensialını tam olaraq gücləndirməyə hesablanıb.

Bu gün ASCO-nun donanmasında 13 bərə gəmisi, ”Ro-Ro” tipli 2 gəmi və ”Ro-Pax” tipli 1 gəmi fəaliyyət göstərir. Hazırda ASCO dəmir yolu vaqonlarının dəniz vasitəsilə daşınmasını təmin edən Xəzərdə yeganə bərə operatorudur. Qeyd olunan donanma həm vaqon, həm də avtomobil yükləri üçün Xəzər dənizində körpü rolunu oynayır və bu imkandan Transxəzər dəhlizi üzrə yükdaşımaları həyata keçirən bütün istifadəçilər yararlanırlar.

Azərbaycanın gəmiçilik sahəsində mühüm nailiyyətlərindən biri də geniş potensiala malik və regionun ən müasir müəssisələrindən sayılan Bakı gəmiqayırma zavodunun 2013-cü ildə istifadəyə verilməsidir. Bu zavodun istismara verilməsi ölkəmizdə yeni gəmilərin alınması istiqamətində idxaldan asılılığı aradan qaldırıb. Azərbaycanda belə bir zavodun yaradılması Xəzər dənizinin spesifik xüsusiyyətlərini və bu hövzədə mövcud liman infrastrukturlarının texniki imkanlarını nəzərə almaqla, nadir layihələr və yeni konsepsiyalar əsasında bütün növ gəmilərin tikintisinə imkan verir. ”Ro-Pax” tipli gəmilər də bu qəbildəndir. Ən yüksək standartlara uyğun gəmi-bərələrin istehsalı Azərbaycan dövlətinin istər iqtisadi, istərsə də sənaye və texnologiyalar sahələrində gücünün göstəricisidir. Hazırda zavodda ASCO-nun donanması üçün daha 2 tankerin inşası davam etdirilir.

Onu da deyək ki, ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin 2014-cü ildə qəbul olunmuş Strateji İnkişaf Planının icrası çərçivəsində ötən müddətdə ümumilikdə 24 gəmi istismara verilib. Azərbaycan gəmiləri Xəzərdən kənarda - Qara dəniz və Aralıq dənizi hövzələrində də fəaliyyət göstərir. Burada ASCO-nun 7-si quru yük gəmisi və 6-sı tanker olmaqla 13 gəmisi istismar edilir. Həmin hövzələrdə Azərbaycan bayrağı altında üzərək ölkəmizi xarici sularda təmsil edən gəmilərin heyəti bütünlüklə azərbaycanlı dənizçilərdən təşkil olunub.

# Azərbaycan - NATO əməkdaşlığı inkişafdadır

## Prezident İlham Əliyev Baş katibin xüsusi nümayəndəsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul edib.**

Xavyer Kolomina NATO-nun Baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yens Stoltenberqə çatdırmağı xahiş etdi.

Görüşdə dövlətimizin başçısının ötən ilin sonunda NATO-nun mənzil-qərargahına səfəri və səfər çərçivəsində Baş katiblə görüşü, həmçinin Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı. Eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında ölkəmizin iştirakı qeyd edildi.

Söhbət zamanı postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik ilə bağlı məsələlər və Azərbaycan-NATO əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Sumqayıtda dəhşətli yanğın

## Alovun söndürülməsinə helikopterlər cəlb edilib

### Ərazidəki işçilər və mülki şəxslər təhlükəsiz yerlərə evakuasiya olunub





**İşçilər və mülki şəxslərin təhlükəsiz ərazilərə evakuasiyası həyata keçirilib. Bütün əlaqədar strukturlar problemin qısa zamanda aradan qaldırılması üçün səfərbər olunub, onlara lazımi tapşırıqlar verilib.**

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Fövqəladə Hallar Nazirliyi Sumqayıtdakı yanğınla bağlı birgə məlumat yayıb.

Məlumtda göstərilir ki, 28 aprel 2022-ci ildə saat 17:20 radələrində Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsi, Metal baza yolunda yerləşən ”Azərsun Sənaye parkı” kompleksinin ərazisində yanğın hadisəsi baş verib.

Daxil olmuş məlumat əsasında dərhal Baş Prokuroluğun və FHN-nin əməkdaşları hadisə yerinə çıxmışlar.

Ilkin araşdırmalar zamanı müəyyən edilmişdir ki, yanğın kompleksin ərazisində plastik tullantıların atıldığı yerdən başlayaraq ərzaq və digər anbarlara yayılmaqla geniş ərazini əhatə etmişdir.

Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 225.2-ci maddəsi ilə cinayət işi başlanmış, prokurorluq və FHN-nin müstəntiqlərindən ibarət istintaq qrupu yaradılmışdır.

Yanğının lokallaşdırılması və söndürülməsi üzrə tədbirlər davam etdirilir.

*Yanğın söndürüldükdən sonra hadisənin baş vermə səbəbləri və dəymiş ziyanın müəyyənləşdirilməsi üzrə istintaq hərəkətləri həyata keçiriləcək.*

# Şuşa dünyanın beyin mərkəzlərini bir araya gətirir

## Beynəlxalq forumda 20-dən çox ölkənin 50-yə yaxın eksperti müzakirələr aparıb

**Dünən Şuşada ”Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq” beynəlxalq forumu keçirilib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və ADA Universitetinin təşkilatçılığı ilə keçirilən forumda dünyanın 20-dən çox ölkəsindən 50-yə yaxın xarici beyin mərkəzinin ekspertləri, tədqiqatçı-alimlər və media nümayəndələri iştirak edib.**

Forum iştirakçıları əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına - Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Hava limanı ilə tanış olduqdan sonra Füzuli rayonunda minaların zərərsizləşdirilməsi prosesini izləyiblər. Daha Sonra qonaqlar Zəfər yolu ilə Şuşaya səfər ediblər. Forum çərçivəsində Şuşada quruculuq və bərpa mövzusunda ”Şuşa-dirçəlişə gedən yol”, həmçinin postmünaqişə dövrünə dair ”Əməkdaşlıq, imkanlar və çağırışlar” adlı panel müzakirələri keçirilib. Aprelin 29-da isə ADA Universitetində ”Mina təhlükəsi və məcburi köçkünlərin geri qaytarılması ilə bağlı qarşıya çıxan problemlər” mövzusunda müzakirələr davam etdiriləcək.

**“Minaların yükü Azərbaycanın üzərində qalmamalıdır”**

**ORSAM-ın direktoru, professor Əhməd Uysal deyib ki, belə bir konfransın təşkil edilməsi çox önəmlidir.** Onun sözlərinə görə, Qarabağ zəferindən 2 il sonra önəmli müzakirələr aparılır. Təəssüf ki, Ermənistanın çox güclü təbliğat maşını var. Bu, hər kəsə təsir edir: ”Xüsusən, Qərbdə daha çox təsirlidir. Bu təbliğat maşınının dəstəkçiləri isə təkcə ermənilər deyil. Həm Azərbaycanın, həm də Türkiyənin əleyhinə davamlı olaraq qaralama kampaniyaları aparırlar. Guya, Azərbaycana səfər etmək olmaz, geridə qalmış bir ölkədir. Halbuki, belə deyil. Azərbaycan inkişaf etmiş, müasir və gözəl bir ölkədir. Tədbir iştirakçılarının bunları öz gözləri ilə görmələri çox önəmlidir. Çünki gedib orda danışacaqlar. Ən azından özləri bu barədə məlumatlı olacaqlar. İkinci məsələ işğaldan azad edilən ərazilərin mina problemidir. Hesab edirəm ki, bu məsələyə beynəlxalq müstəvidə lazımi diqqət edilmir. Müharibə bitsə də, insanlarımız həyatını itirir. Bu məsələyə maraq və diqqətin artırılması lazımdır. İstər maddi, istər texniki sahədə dəstək göstərilməlidir. Yük sadəcə Azərbaycanın üzərində qalmamalıdır. Dağıtmaq asandır, qurub yaratmaq isə çətin. Azərbaycan bu gün çətin işi üzərinə götürüb. Ermənistan isə dağıtmaq üçün addımlar atıb. Birlikdə bu problemi həll etməliyik”.

**“Azərbaycan Qarabağda gələcəyə dair böyük layihələr həyata keçirir”**

Roma Universitetinin professoru Salvador Santanqelo bildirib ki, Qarabağdakı yenidənqurma işləri post-münaqişə yenidənqurmasına dair əla nümunə olacaq. O, beynəlxalq ictimaiyyətin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minaların təmizlənməsinə yardım edəcəyinə ümidvar olduğunu vurğulayıb: ”Mən ikinci dəfədir ki, Qarabağdayam. Düşünürəm ki, bu məkanın tarixi post-münaqişə yenidənqurmasına dair əla bir tarix olacaq. Azərbaycan burada sadəcə keçmişlə bağlı deyil, həm də gələcəyə dair böyük layihələr həyata keçirir. Ona görə də düşünürəm ki, bizim burada olmağımız, bu layihələri öyrənməyimiz, onlar haqqında danışmağımız vacibdir. Bu, sadəcə azərbaycanlılar üçün deyil, bütün Qafqaz üçün böyük bir xəyaldır. Minalanmış sahələr isə münaqişənin ən pis miraslarından biridir. Bu gün həmin ərazilərə də baxış keçirəcəyik. Biz hamımız ümid edirik ki, Azərbaycan beynəlxalq ictimaiyyətin də yardımı ilə bu böyük problemi həll edə biləcək”.



**“Hər zaman Şuşaya gəlmək istəmişəm”**

**Avropa Siyasət Mərkəzinin (European Policy Center) baş analitiki Amanda Paul deyib ki, Şuşada olmaq onun üçün çox xoşdur, çünki hər zaman buraya gəlmək istəyib:** ”Müharibə bitdikdən sonra Azərbaycan tərəfindən hansı işlərin görüldüyünü müşahidə etmək üçün buraya gəlmək istəmişəm. Hər şey çox təsiredicidir. Yeni yolun (Zəfər Yolu) bu qədər qısa zamanda tikilməsi və digər bərpa işləri çox vacibdir. İndi ümid yaşadığı evlərdən didərgin düşmüş insanların qısa bir zamanda buraya qayıda bilməsinədir. Amma təbii ki, bu, tez bir zamanda ola bilməz, çünki hələ bərpa, yenidənqurma işləri gedir və ərazilər minalardan təmizlənir. Amma yenə də ümid edirəm ki, bir müddət sonra Azərbaycan vətəndaşlarının buraya böyük qayıdışı olacaq və onlar erməni əsilli vətəndaşlarla birgə yaşaya biləcək”.

**İsveçli rejissor Şuşa barədə sənədli film hazırlayır**

**İsveçdən olan məşhur fotoqraf, sənədli filmlər üzrə rejissor Mikael Silkeberg Şuşa barədə sənədli film hazırlayır.** Rejissor bildirib ki, filmin əsas xəttində Şuşanın simvolu olan Xarıbülbül dayanacaq. Onun sözlərinə görə, Şuşada çəkilişlər demək olar başa çatıb. Rejissor filmin bir hissəsinin çəkilişlərinin Bakıda aparılacağını da diqqətə çatdırıb: ”Şuşada məni ən çox təsirləndirən məqamlardan biri də güllələnmiş heykəllər oldu”. Mikael Silkeberg əlavə edib ki, filmin Türkiyədə nümayişi də nəzərdə tutulub.

**“Ermənilər Ağdamda hər yeri dağıdıblar”**

**MDB Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi döyüşçülərin işləri üzrə komitə sədrinin müşaviri, Rusiyadan olan nümayəndə Yuri Kireev bildirib ki, ermənilər hər yeri dağıdıblar.** Azərbaycanlıları öz torpaqlarından çıxarıblar, özləri isə dağıtmaqdan başqa heç nə etməyiblər. O, azad olunan torpaqlarda tezliklə hər şeyin bərpa olunacağına inandığını bildirib: ”Əsas məsələ budur ki, bu müqəddəs torpaqlar artıq azaddır və tezliklə hər şey bərpa olunacaq. Mənim azərbaycanlılardan da, ermənilərdən də çoxlu dostlarım var. Ancaq deyə bilərəm ki, işğal zamanı bu torpaqlarda edilənlər haqsızlıqdır, düzgün deyil”.

**“Şuşa həm də bizim mədəniyyət paytaxtımızdır”**

**Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəm vurğulayıb ki, Pakistan Ermənistanı dövlət kimi tanımayan ölkələrdən biridir**: ”Şuşanın və Qarabağın bizim qəlbimizdə xüsusi yeri var. Biz Şuşanı, Qarabağı həmişə araşdırmışıq, öz kitablarımızda bu barədə dərc etmişik. Xarici siyasətimizdə bu məsələdə aydın mövqe ortaya qoymuş, açıq şəkildə bəyan etmişik ki, Ermənistanı tanımırıq. Bu gün bura, Şuşaya gəlmək sanki öz evinə gəlmək kimi bir hissdir və çox şadam ki, həyatımda Şuşaya gəlmək kimi bir imkanım oldu. Şuşa gözəl şəhərdir”. O qeyd edib ki, Pakistan Azərbaycanın bu uğurunu bölüşür: ”Biz Azərbaycan hökumətini və Azərbaycan xalqını həm bu uğura, həm də bu ərazilərin sürətlə tikilməsinə və bərpasına görə təbrik edirik. Bu gün Şuşaya çox keyfiyyətli yolla gəldik. Nəzərə alın ki, bu yol yalnız bir il ərzində çəkilib. Həmçinin mən hava limanını qeyd etmək istərdim. Məncə bu, Ginnesin Rekordlar kitabına daxil edilməlidir. Heç bir ölkə 7-8 ay ərzində belə yüksək səviyyədə standartlara uyğun hava limanı inşa etməyib. Mən Azərbaycan xalqına bir daha öz təbriklərimi çatdırıram. Bütün bunlar Azərbaycan xalqının səyləri ilə reallaşıb”.

**“Azərbaycanın 5 maddəlik təklifi ilə razılaşma əldə edilə bilər”**

**Rumıniya baş nazirinin müşaviri Yuliyan Çifu bildirib ki, Azərbaycanın 5 maddəlik təklifi ilə razılaşma əldə edilə bilər:** ”Azərbaycan və Ermənistan arasında razılaşmanın Prezident İlham Əliyevin təqdim etdiyi prinsiplər əsasında əldə ediləcəyinə ümidvaram. Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası üçün əvvəlcə razılaşmanın əldə edilməsi önəmlidir. İkinci məqam isə texniki hissə olan sərhədlərin delimitasiyasıdır. Bu, çox vacibdir. Doğrusu, siz bunların hər ikisini də edə bilərsiniz. Amma ilk növbədə razılaşma olmalıdır. Əgər ölkələrin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və hörmət prinsiplərini təsdiqləyən razılaşmanı reallaşdıra bilsəniz, düşünürəm ki, texniki hissə olan delimitasiya baş tuta bilər. Bunlar irəliyə doğru çox önəmli addımlardır. Amma mən tövsiyə edərdim ki, əvvəlcə məsələnin iqtisadi tərəfinə yönələsiniz. Çünki Ermənistanı iqtisadi baxımdan Azərbaycan və Türkiyə ilə inteqrasiya etdirə bilsəniz, Azərbaycanın böyük əlavə imkanları olacaq”. Yuliyan Çifu Azərbaycan ərazilərinin minalardan təmizlənməsi ilə bağlı problemlərin qaldığını, bu problemlərin həll ediləcəyinə ümidvar olduğunu qeyd edib.

**İsmayıl**





# Maraqlı müzakirə aparılıb

## Tanınmış PR mütəxəssisləri tələbələrə kommunikasıyanın əhəmiyyətinə dair təlim keçib



**Azərbaycan Dövlət Bədən Təbiyəsi və İdman Akademiyasının İdman tibbi və menecmenti fakültəsinin SABAH qrupları üçün "Düzgün kommunikasıyanın əhəmiyyəti və müasir trendlər" və "Uğurlu kommunikasiyanın qurulması: pozitiv kommunikasiya" mövzularında təlim keçirilib.**

"Düzgün kommunikasıyanın əhəmiyyəti və müasir trendlər" mövzusunda "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili şöbəsinin müdiri Zamirə Ədilova tələbələr qarşısında çıxış edib.

O, " Ünsiyyət bacarıqları", "Ünsiyyət növləri", "Sərbəst və səmərəli kommunikasiya qurma qabiliyyətinin inkişaf etdirilməsi", "TƏBİB-in Kommunikasiya strategiyası", "PR siyasətində müasir trendlər" mövzularına toxunub, şəxsi təcrübəsini bölüşüb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva "Uğurlu kommunikasiyanın qurulması: pozitiv kommunikasiya" mövzusunda çıxış edib. Səidə Şəfiyeva tələbələrə media sahəsində effektiv kommunikasiyanın qurulması, karyeranın artırılmasında natiqliyin rolu, nitqin qurulması barədə danışıb. O, təlim iştirakçılarına ünsiyyətin tərəfləri, funksiyaları, kommunikasiya növləri, vasitələri haqqında ətraflı məlumat verib, ünsiyyət problemlərinin həllində effektiv ünsiyyət texnikalarını və metodlarını diqqətə çatdırıb, həmçinin praktik çalışmalar tətbiq edib.

*Media və ictimaiyyətlə əlaqələr dərsi çərçivəsində təqdim edilən təlim maraqlı simulyasiya və müzakirələrlə başa çatıb.*

**Günəş Mərd**

# İzdiham görünmür

## Ermənistan müxalifəti dönüş yarada bilməyəcək

**İsmayıl Qocayev**

**Ermənistan paytaxtı İrəvanda Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə etiraz aksiyaları davam edir. Müxalifət onun başçılıq etdiyi hökuməti Qarabağ məsələsində "yolverilməz güzəştlərə getməkdə" ittiham edir. Paşinyanın "fərsiz siyasəti" sayəsində Ermənistanın yeni təhdidlərə düçar olduğu və hətta dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşdiyini bildirirlər.**

Mayın 1-də İrəvanda planlaşdırılan müxalifətin "ümumxalq" mitinqinə qatılmaq üçün də ölkənin müxtəlif bölgələrindən paytaxt istiqamətinə piyada yürüşləri başlanıb. Etiraz aksiyalarına 44 günlük müharibədə həlak olan hərbçilərin valideynləri də qatılıb. Onlar Ermənistanın Baş Prokurorluğu binasına yollanıblar. Valideynlər Paşinyanın cinayət məsuliyyətinə cəlb olunması üçün "kifayət qədər material topladıqlarını" iddia ediblər. Ermənistan Milli Təhülkəsizlik xidmətinin sabiq direktoru Artur Vanetsyan mübarizənin ikinci mərhələsinin başladığını açıqlayıb. Gəncləri etiraz aksiyalarına qoşulmağa çağıran Vanetsyan onlara tanınmış musiqiçilərdən ibarət konsert vəd edib. Təbii ki, radikal müxalifətçi revanşist qüvvələrin Ermənistan cəmiyyəti üçün hazırladıqları qanlı-qadalı "sürpriz"dən bəhs etməyib. Reallıq isə odur ki, Ermənistanın 44 günlük müharibədə ağır məğlubiyyətini hakimiyyətə gəlmək üçün əlverişli şans kimi qiymətləndirən revanşistlər İrəvanın Azərbaycanın prinsipial mövqeyi qarşısında addım-addım geri çəkildiyini gördükcə Paşinyan hökumətinə təzyiqi daha da gücləndirirlər. Bir vaxtlar münaqişədən hakimiyyətə gəlmək üçün istifadə edən qüvvələr indi də İkinci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətdən eyni məqsədlə yararlanmağa çalışırlar. Ancaq yürüş və aksiyalarda kifayət qədər az adamın olması göstərir ki, erməni ictimaiyyəti revanşistlərə etimad etmir.



### Çünki yenidən müharibə istəməyən ermənilər Paşinyanı dəstəkləmək yolu tuturlar

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib ki, Ermənistan müxalifətinin ölkədəki problemlərlə, ermənilərin sosial durumu və gələcəyi ilə bağlı vahid ideoloji baxış bucağı yoxdur. Analitikə görə, fərqli və ziddiyyətli görüşlərə sahib radikal müxalifləri, revanşist qüvvələri birləşdirən amil məhz Nikol Paşinyandır:** "Müxalifət birbaşa Paşinyana qarşı mübarizə aparır. Ancaq erməni əhalisinin 80 faizi küçələrə çıxmır, passivlik nümayiş etdirirlər. Əlbəttə, bu mənzərə heç də onların indiki hakimiyyəti dəstəkləməsindən irəli gəlmir. 2018-ci ildəki "məxməri inqilab" zamanı ermənilərin gözləntisi böyük idi. Amma onların gözləntisi reallaşmadı. Digər çəkindirici səbəb isə 44 günlük müharibə ilə bağlıdır. Erməni ictimaiyyəti fərqindədir ki, əgər hakimiyyət dəyişərsə və hökumətə militarist qüvvələr gələrsə, yeni müharibə başlaya bilər. Yenidən müharibə istəməyən ermənilər Paşinyanı dəstəkləmək yolu tuturlar. Əhalinin 70-80 faizi Paşinyanı dəstəkləyir. Ermənilər müharibənin onlara necə aqibət yaşatdığını görüblər. İkincisi isə sosial və iqtisadi məsələlərlə bağlıdır. Siyasi mənzərəyə baxsaq, görərik ki, baş nazirə dəstək verənlər arasında 2016-cı il aprel döyüşlərindən sonra S.Sarkisyana qarşı çıxan "Sasna tsrer" adlı qruplaşma da var. Eyni zamanda ABŞ və Avropa İttifaqı ilə bağlılığı olan QHT-lərdə baş nazirin yanında yer alırlar. Rusiya tərəfi də Paşinyanın hakimiyyətdən getməsi ilə bağlı qərar verməyib. Bu gün erməni seçiciləri heç də ruspərəst siyasətçinin hakimiyyətə yiyələnməsini istəmirlər. Moskvada bunu anlayırlar. Ümumən götürdükdə, müxalifətin aksiyalarında izdiham yox səviyyəsindədir".

# Qarabağın çilingərə, bənnaya, qaynaqçıya da ehtiyacı var

## Elman Məmmədov: "İşğaldan azad edilmiş rayonlarımızda təkcə xaricdən gələnlər işləməməlidir"



**İsmayıl Qocayev**

**Azad olunmuş ərazilərimizdə həyata keçirilən sürətli tikinti-quruculuq, bərpa işləri hər birimizi sevindirir, qürurlandırır. Təbii və haqlı olaraq çoxlarımız, xüsusən Qarabağ sakinləri öz yurdlarının yenidən dirçəldilməsi prosesində yaxından iştirak etmək arzusundadır.**

Minlərlə insan işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa işlərinə öz töhfəsini vermək niyyəti güdür. Hər kəsin qəlbindən keçir ki, yeni qurulan şəhərlərdə, qəsəbə və kəndlərdə onların da imzası olsun. Bir müddət əvvəl də elan verildi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin istifadəyə verdiyi Məşğulluq Alt Sistemində gənclər işğaldan azad edilən ərazilərdə boş vakansiyalar üzrə müraciət edə bilərlər. Dövlət Məşğulluq Agentliyinin şöbə müdiri Vüqar İmanov bildirmişdi ki, tikinti sahələri üzrə boş iş yerləri kifayət qədər çoxdur. Ələlxüsus, Zəngilan, Füzuli və Cəbrayılda mühəndis və oxşar vəzifələr mövcuddur. Görünən odur ki, müraciətlər həddindən artıq çox olduğuna görə, xeyli vətəndaşımızın işlə bağlı arzusu reallaşmır. Yüzlərlə insanımız Qarabağda işləmək niyyəti ilə dövlət orqanlarına baş vursalar da, müraciətləri nəticəsiz qalmaqdadır. Ötən gün Milli Məclisin iclasında deputat Tural Gəncəliyev də bənzər məsələni gündəmə gətirmişdi. Millət vəkili qeyd etmişdi ki, Qarabağdakı quruculuq işlərində peşə təhsilli gənclərə çox ehtiyac var. Ancaq işəgötürənlər ali təhsil diplomu tələbi qoyurlar. Buna görə də əksər peşə sahiblərinin Qarabağa yolu bağlanmış olur.

**Problemi "Şərq"ə dəyərləndirən millət vəkili Elman Məmmədov deyib ki, aylardır ona və həmkarlarına, həmçinin, işğaldan azad edilmiş rayonların icra başçılarına çoxsaylı müraciətlər edilir. Deputatın sözlərinə görə, müraciətlər yazılı ərizələrlə, yaxud telefon zəngləri ilə olur:** "Müxtəlif yerlərdə səyyar görüşlər zamanı bununla bağlı arzu-istəklər dilə gətirilir. Vətəndaşların mənə müraciəti əsasən Şuşa və Ağdam rayonları ilə bağlıdır. Onlar öz rayonlarının bərpa-quruculuq işlərində iştirak etmək istəyirlər. Biz də müraciətləri müvafiq qurumların diqqətinə çatdırırıq. Məsələ ondadır ki, hazırda Qarabağda quruculuq işləri həyata keçirən şirkətlər uzun illər fəaliyyət göstərən, təcrübəli və peşəkarlaşmış təşkilatlardır. Həmin şirkətlərin öz işçi qüvvəsi var. Əlavə işçi cəlb olunan zaman da yəqin ki, öz kriteriyalarına, tələblərinə uyğun insanlar seçirlər. Çox arzu edərdik ki, işğaldan azad edilmiş rayonlarda bərpa işləri görən şirkətlər yerli sakinlərin əməyindən də faydalansınlar. Onların prosesə cəlb edilməsi məqsədəuyğundur. Qarabağ bölgəsinə məxsus yerli təşkilatların da ümumi işə töhfə verməsi yaxşı olardı. Bununla keçmiş məcburi köçkünlər arasında işsizlik problemi aradan qalxar. Həmçinin, onminlərlə insanın öz torpaqlarında işləmək, quruculuqda iştirak etmək arzusu reallaşmış olar".

**E.Məmmədov diplom tələbi məsələsinə də münasibət bildirib:** "Çilingərə, fəhləyə, bənnaya, qaynaqçıya ali təhsil, diplom lazım deyil. Qarabağda onların hamısına ehtiyac var. Əlbəttə, müəyyən işlərə yüksək səviyyəli mütəxəssislər tələb olunur. O zaman mütəxəssislər arasından seçim edilməsi anlaşılandır. Cənab Prezident vurğulayıb ki, Qarabağ ən yüksək səviyyədə bərpa olunmalıdır. Ölkə rəhbəri həm də dəfələrlə yerli sahibkarlara çağırış edib, onları quruculuq işinə dəstək verməyə səsləyib. Yerli iş adamlarımız bu işdə fəal olmalı, Qarabağa sərmayə qoymaqdan çəkinməməlidirlər. İşğaldan azad edilmiş rayonlarımızda təkcə xaricdən gələnlər işləməməlidir. Özümüz də bərpa prosesində yaxından iştirak etməliyik. Əminəm ki, quruculuq işində öz insanlarımıza, yerli sahibkarlara ehtiyac böyükdür".

# Çatdıra bilmirlər

## Hər gün maaşlarından 10 AZN kəsirlər

**Sücayət Mehti**

**"Bolt Food" yemək çatdırılma xidmətinin kuryerləri daşıma xidmətinin qiymətinə etiraz edirlər. Çatdırılma fəaliyyəti ilə məşğul olan işçilər hətta aksiya keçirməyi də planlaşdırıblar.**

Yürüşə çıxanlar çantalarına "Qiymətlər qalxmayana qədər işləməyəcəyik" şüarı yapışdırmalıdırlar. Eyni zamanda mobil applikasiyasını bağlayaraq, işə çıxmayacaqlar. Daha sonra daşıma xidmətinin qiymətinin aşağı olmasına etiraz edən kuryerlərin işdən çıxarıldığı bildirilib.

Qeyd edək ki, aprelin 21-də isə "Wolt" şirkətinin kuryerləri xidmət haqlarının aşağı olması ilə əlaqədar sosial şəbəkələrdə etiraz ediblər. Bildirilib ki, şirkət ödənişi son 2,5 il ərzində 2 manatdan 1.60 manata salıb.




"Özbaşınalıq hökm sürür. Əmək Məcəlləsinin tələbləri pozulur. İqtisadiyyat Nazirliyi məsələyə əncam çəkməlidir"

Nəzərə alsaq ki, kuryer kimi çalışanlar arasında ailə başçıları, tələbələr var, etirazlarını haqlı hesab etmək olar. Hazırda gündən-günə kuryer xidmətindən yararlananların sayı artır. Belə olduğu halda, daha çox işçiyə ehtiyac olur. Kuryer əməkdaşlar isə onlara edilən ödənişlərin qənaətbəxş olmadığını bildirirlər. Narazılıq edənləri də işdən çıxarırlar. Bəs, onlar ailələrini necə saxlasın?! Tələbələr sırf valideynlərinə yük olmasınlar deyə gündüzlər oxuyub, gecələr kuryer fəaliyyəti ilə məşğul olurlar. Amma o əziyyətlərinin qarşılığında qazandıqları məvaciblər ürəkaçan deyil.

Başqa bir problem isə bəzən kuryerlərin yemək çatdırılma zamanı motosiklet və velosipeddən istifadə edərkən yol hərəkəti qaydalarına riayət etməməsidir. Sonda isə bədbəxt hadisələrin yaşanmasına şahid oluruq.

**Nəqliyyat məsələləri üzrə ekspert, "avtosfer.az" saytının baş redaktoru Elməddin Muradlı "Şərq"ə açıqlamasında bildirib ki, kuryer xidməti ilə bağlı problemlər demək olar ki, ya "Wolt"da, ya da "Bolt Food"da çıxır:**

### "Bolt Food" kuryerlərinin qara günləri başlayıb

"Bəzi şirkətlər kuryerləri sifariş çatdırılması zamanı tələsdirirlər. Məcbur edirlər ki, qidanı, əşyanı müştəriyə yarım saat ərzində çatdırmasalar, əmək haqlarından 10 AZN tutulur. Ona görə də onlar naçar qalaraq, yol hərəkəti qaydalarını kobud şəkildə pozurlar, qəzalar baş verir. Neçə əməkdaşı maşın vurub, öldürüb. İndi də qiymətlərlə bağlı şirkətlərin özlərinin açıqlamasına görə, Ramazan ayı olduğu üçün çox sifariş yoxdur. Bu səbəbdən qiymətləri aşağı salıblar".

**Ekspert diqqətə çatdırıb ki, bütün hallarda bu sahədə ciddi boşluqlar var:**

"Özbaşınalıq hökm sürür. Əmək Məcəlləsinin tələbləri pozulur. İqtisadiyyat Nazirliyi məsələyə əncam çəkməlidir.

Orada işçilərin hüquqlarının müdafiəsi ilə bağlı tədbirlər görülməlidir. Əmək qanunvericiliyinə uyğun, əməkdaşlarla müqavilə bağlanmalıdır. Rəsmi şəkildə işçi kimi tanınmalıdırlar. Onlara da konkret ödənişlər müəyyənləşdirilməlidir. Verilən maaşın necə və kimin istəyi əsasında hesablandığını da aydınlaşdırmaq lazımdır. Hazırda təəssüf ki, Bolt Taksi, Uber Taksi xidməti, "Wolt" və "Bolt Food" kuryer fəaliyyəti yalnız insanları istismar etməklə məşğuldur. Məsələyə birdəfəlik son qoyulması üçün dövlət qurumları mütləq müdaxilələr etməlidir. Kiminsə maraqları yox, dövlətin qanunu bərqərar olmalıdır".

# Azərbaycan mavi qaz hasilatını artırıb

## Bu ölkəmizin geo-siyasi mövqeyini daha da gücləndirir



**"Rusiyanın Polşa və Bolqarıstana mavi qaz ixracatının məhdudlaşdırılması barədə qərarından sonra Avropa İttifaqında enerji təhlükəsizliyi məsələsi daha da prioritetləşib".**

**Bu barədə "Şərq"ə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, qitə alternativ mənbələrdən qaz idxalını artırmağa çalışsa da, hələlik "Qazprom" Avropada dominantlığını qoruyub saxlamağa çalışır:** "Bu arada Azərbaycan mavi qaz hasilatını artırmaqda davam edir. Bu ilin ilk rübündə Azərbaycanda 11,8 milyard kub metr təbii qaz hasil edilib. Bu o deməkdir ki, ilin birinci rübündə mavi qaz hasilatı 12, ixracatı isə 15 faiz çoxalıb. Avropaya qaz ixracatı isə 2.4 dəfə artıb. Rəsmi rəqəmlər göstərir ki, Azərbaycanın Avropanın və eləcə də regionun enerji təhlükəsizliyinin formalaşmasında rolu artmaqdadır. 2020-ci ilin dekabrından sonra Azərbaycan Avropaya 11 milyard kub metrdən çox mavi qaz nəql edib. Ötən il 43.9 milyard kub metr qaz hasilat edən ölkəmizdə istehsalın bu il daha da artacağı gözlənilir. Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın rolunun artması ölkənin regional geo-siyasi mövqeyini daha da gücləndirir".

**İsmayıl**

# Hər gün 42 cütlük boşanır

## "Ailə quranda ən azı 3 il uşaq haqqında düşünmək lazım deyil"



**Cəmiyyətin bu gün ən çox müzakirə etdiyi mövzulardan biri boşanmalardır. Hamı problemdən danışır, həll yolunu göstərən isə demək olar ki, yoxdur. Bir zamanlar ailələrin daha çox qayınana-gəlin, gəlin-baldız münasibətlərinə görə dağıldığını desələr də indi bu kimi səbəblər tarixə qovuşur.**

Azərbaycanda hər saatda 1-2 cütlük boşanır. Bu, dəhşətli rəqəmdir. Rəsmi rəqəmlərə görə, son 2 ayda ölkədə 2505 boşanma qeydə alınıb. Bu isə günə 42 boşanma deməkdir. Səbəblər çoxdur, nəticə isə sadəcə olaraq faciədir... Belə getsə, bir neçə ilə ölkədə ailə institutu deyilən bir anlayış qalmayacaq! Bu rəqəmlər artıq SOS siqnalıdır.

Ailələrin boşanma səbəbi, burada rol oynayan əsas faktorlarla bağlı "Şərq"ə müsahibə verən beynəlxalq hüquqşünas, mediator Fərhad Mehdiyev hesab edir ki, gənclər evliliyə hazır olmadan bu yola girirlər. Ailə həyatının gətirdiyi çətinlikləri bilmədən, evliliyin məsuliyyətini dərk etmədən nikah bağlayırlar. Halbuki evlənməzdən əvvəl 3 dəfə düşünüb, "bir az daha gözləyim" demək lazımdır. Əvvəla evlənən tərəflər həm özlərini və evlilikdən nə gözlədiklərini, həm də qarşı tərəfi və onun evlilikdən nə gözlədiyini başa düşməlidir və qarşı tərəfə başa salmalıdır.

Kişilər bilməlidir ki, evlənmək istədikləri qadına qarşı duyduqları ehtiras keçicidir və ilk mətbəx "razborka"sından sonra sona çata bilər, bu səbəblə də onu həmin qadına bağlayan digər mənəvi, dünyagörüşü və kültür bağlarının olub-olmadığını yoxlamalıdır.

Sosial-iqtisadi şərait dəyişib. Heç nə əvvəlki kimi deyil. Azərbaycan xalqının mentaliteti əvvəlki ailə müəssisəsinə uyğundur. Reallıqda isə şahidi olduğumuz mənzərə tamam fərqlidir. Artıq insanlarımız rahat şəkildə bir-biriləri ilə ünsiyyətə girib, rahat şəkildə yeni tanışlıqlar əldə edirlər. Bunun özü də ailə bağlarını zəiflədən səbəblərdən biridir. Yəni hər iki tərəf düşünür ki, evləndiyi şəxslə xoşbəxt ola bilməsə, boşanıb başqa biri ilə münasibətdə olacaq. Yəni insanlarımız üçün artıq ailə həyatı müqəddəs deyil. Onlar üçün vacib və dəyərli olan şəxsi həyatlarıdır. Qarşı tərəfin istəkləri, evlilikdən gözləntiləri ümumiyyətlə maraqlandırmır.

Adətən bəylərimiz yeni tanışlıq, sevgililik müddətində qadınlara daha çox diqqət və qayğı göstərir, onlara qarşı sevgi dolu olurlar. Ailə həyatı qurandan sonra isə evləndiyi qadına qarşı marağı azalır. Qadın isə əvvəlki münasibəti axtarır, ərindən diqqət və qayğı gözləyir. Evləndiyi şəxs tərəfindən əvvəlki kimi arzulanmadığını görən qadın da bir müddət sonra həmin kişidən soyuyur və başqa insanla xoşbəxt olacağına inanır. Yeni münasibətlər axtarışına çıxır.

**- Deməli, ailələrin sürətlə dağılma səbəbi xəyanətdir?**

- Əvvəllər də xəyanət olurdu. Amma yeni bir münasibət qurmaq, başqaları ilə tanış olmaq bu qədər

***Fərhad Mehdiyev: "Bu gün insanlarımız üçün artıq ailə həyatı müqəddəs deyil. Onlar üçün vacib və dəyərli olan şəxsi həyatlarıdır"***

asan deyildi. Bu münasibətlər xəyanətlə nəticələnməyə də bilir. Sadəcə, tərəflərin seçim imkanlarını artırır. Cütlüklərin boşandıqdan sonra tək qalmaq, sevgisiz qalmaq kimi bir qorxuları olmur. Başqasını tapacağına əmin olur.

Gənclər ailə quranda qalıcı olub-olmayacağına əhəmiyyət vermirlər. Bu çox vacib məsələdir. Onlar sadəcə münasibət qurmaq istəyirlər. Həmin münasibətin nə qədər davam edəcəyi maraqlı deyil.

**- Boşanma nisbətinin artmasında internet və sosial şəbəkələrin xüsusi rolu var?**

- Seçim imkanlarının artmasında birbaşa sosial şəbəkələrin rolu var. Cütlüklərimiz bir-birini itirməkdən qorxmur. Bir-biri ilə münasibətləri korlananda aralarındakı problemlərin həllinə çalışmaq əvəzinə arzuladığı münasibəti kənarda axtarmağa çalışır. İnternetin əlçatan olmadığı vaxtlarda boşanmış bir qadının, yaxud kişinin qısa müddətdə başqası ilə tanış olması mümkün deyildi. Ona görə də tərəflər ailəsini qorumağa, münasibətlərini qoruyub saxlamağa çalışırdı.

**- Bəs, kənar müdaxilələrin nə dərəcə təsiri var?**

- Bu problem hər zaman olub, var və daim olacaq. Amma bu müdaxilələr boşanmaya sadəcə olaraq təkan verir. Ailədə hər şey qaydasındadırsa, hörmət, sevgi varsa, belə ailəni dağıtmaq çətin olur.

Boşanmaların bir səbəbi də maddi sıxıntılardır. Ailələr bir-birinə ülvi hisslərlə bağlanmayanda maddi səbəblər önə çıxır. Ərindən arzuladığı diqqət və qayğını görə bilməyən qadın ona pul xərclətməklə daxili boşluğunu doldurur. Kafe-restoranlara getmək, bahalı geyimlər, bəzək əşyaları aldırır. Bunlarla xoşbəxt olan qadınları ərinin ondan soyuması, ona qarşı sevgisinin azalması maraqlandırmır. Maddi imkanı zəif olan ailələrdə isə kişilər qadına bu şəraiti yarada bilmir deyə aradakı soyuqluq tez gözə çarpır. Başqa səbəblər də var, saymaqla bitmir.

Odur ki, evlənməyə qərar verməzdən əvvəl, çox çox düşünmək, tələsməmək lazımdır. Ən əsası isə evliliyin ilk 3 ilində də uşaq sahibi olmaqdan çəkinmək lazımdır.

**- Niyə məhz üç il?**

- 3 il müddətində bir evdə yaşayan insanlar artıq bir- birilərini tanıyır. Ailə olmaq üçün uyğun cütlük olub- olmadıqlarını ayırd edirlər. Cütlüyün bir-birini mənəvi, əqli cəhətdən tanıması kimi, fiziki cəhətdən tanıması üçün bu müddət vacib məsələdir. Bizim cəmiyyətdə nikahdan əvvəl gənclərin bir yerdə yaşamaq seçimi olmur. Evlənən kimi də övlad sahibi olan ailələrdə mövcud problemlər dərinləşir. Əgər cütlüklərin xarakteri uyğunlaşmırsa və onlar ayrılmaq istəyirlərsə, uşaq hər iki tərəf üçün ciddi başağrısı olur. Ona görə həmişə ətrafımdakı gənclərə tövsiyə edirəm ki, ailə quranda 3 ildən tez uşaq haqqında düşünməyin. Nə zaman ki, evləndiyiniz adamın sizin birlikdə yaşamaq istədiyiniz adam olduğuna qərar verəcəksiz, o zaman artıq uşaq haqqında düşünə bilərsiniz.

**- Boşanmaq üçün Mediasiyaya müraciət edən cütlüklər arasında iş məhkəməyə getmədən barışanlar olur?**

- Bəli, amma çox az sayda. Boşanma mərhələsinə qədər gələn cütlüklər mediatorla söhbətdən sonra barışsalar belə bir müddət sonra yenidən boşanırlar. 100-dən çox boşanma işinə baxmışam, cəmisi 5 barışıq olub və hələ də evlilikləri davam edir. Mediator tərəflərlə söhbət aparan zaman bilir ki, həmin ailəni qoruyub saxlamaq olar, yoxsa yox. Bu məsələdə çox həssasam və heç vaxt səhv etmirəm. Barışdırdığım 5 ailə xaric yerdə qalan müraciətlərdə baxdım ki, artıq bizə müraciət edənə qədər bu insanlar arasındakı münasibətlər bitib. Evliliyin təməli sarsılıb.

**- Uzun zamandır boşanma hallarının sayının azalması üçün müəyyən maarifləndirmə işləri həyata keçirilsə də, rəqəmlərdən göründüyü kimi, nəticə olmayıb. Sizcə, boşanmaların qarşısını almaq üçün ilk növbədə hansı addım atılmalıdır?**

- Bəlkə də fikirlərim ictimai rəydə birmənalı qarşılanmayacaq. Düşünürəm ki, evlənmə qaydalarını çətinləşdirmək yox, mürəkkəbləşdirmək lazımdı. Nikaha daxil olmaq istəyən şəxslər ərizə verdikləri gündən 1 ay sonra evlənirlər. Bu müddəti uzatmaq lazımdır. Qanunvericilikdə nikaha daxil olmaq istəyən gənclərin tibbi müayinəsi ilə bağlı müddəalar da öz əksini tapıb. Psixoloji müayinələrlə bağlı da müəyyən düzəlişlər edilməlidir. Xasiyyət, dünyagörüşü uyğunluğu yoxlanılmalıdır.

Əslində bu dediklərim də problemdən tam çıxış yolu deyil. Çünki bizdə toydan sonra nikaha daxil olmaq üçün müraciət edən cütlüklərin də sayı "n" qədərdir. Xüsusən də rayon yerlərində toydan bir neçə ay, bəzən isə uşaq doğulandan sonra rəsmi nikaha daxil olan cütlüklər var. Evlənmə prosedurları çətinləşəndə insanlar bu müddəti vaxt itkisi hesab edərək kəbin kəsdirib toyla evlənəcəklər. Artıq bir yerdə yaşadıqları zaman rəsmi nikaha daxil olmaq üçün müvafiq qurumlara müraciət edəcəklər. Bu mərhələdə isə ayrılıq qərarı alsalar rəsmi nikahlarının olmaması onlar üçün problem yaradacaq. Xüsusən də qadınların əmlakdan istifadə haqları pozulacaq. Gördüyünüz kimi ailə münasibətlərində, boşanmalarda o qədər ciddi problemlər var ki, hansı tərəfə çəksək bir "əmma" tapılır.

**Şeymən**



# "Əgər Kreml səmimi olarsa..."

## Tural İsmayılov: "İrəvana praktiki olaraq təzyiq göstərərsə, sərhədlərin müəyyənləşməsi, o cümlədən sülhlə bağlı irəliləyiş mümkün olar"

**Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Bakıda Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı həftəsonuna kimi təmaslar planlaşdırılıb.**



Zaxarova əlavə məlumatların sonra veriləcəyini deyib. XİN rəsmisi yaxın vaxtlarda Cənubi Qafqaz regionunda kommunikasiyaların, iqtisadi əlaqələrin açılması ilə bağlı Üçtərəfli İşçi Qrupun növbəti iclasının keçirilməsinin tərəflərlə razılaşdırıldığını da vurğulayıb.

Politoloq Tural İsmayılov "Şərq" bildirib ki, Rusiya ilk növbədə Cənubi Qafqaz regionunda öz aktivliyini qorumağa çalışır. Analitik deyib ki, bununla yanaşı, Moskva Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesində də rol oynamaq istəyir: "Kremlin təşəbbüsləri yeni deyil. Nəzərə alaq ki, 10 noyabr bəyanatının üçüncü tərəfi Rusiyadır. Azərbaycan və Ermənistan rəhbərliyi Soçidə birgə bəyanata imza atıblar. Rusiya regionda söz sahibi ölkələrdən biri kimi proseslərdə fəallıq nümayiş etdirməyə çalışır. Ukrayna ilə gərginlik fonunda beynəlxalq aləmdən Rusiyaya qarşı ciddi təzyiqlər var. Moskva Ukrayna məsələsində təkləndiyinin fərqindədir. Ona görə də digər siyasi proseslərdə, dövlətlərarası münasibətlərdə aktivlik göstərərək korlanmış imicindən uzaqlaşmağa, neqativ diqqətdən yayınmağa çalışır".

T.İsmayılova görə, bütövlükdə Rusiyanın belə təşəbbüslərinin pozitiv nəticəyə gətirib çıxaracağını söyləmək tezdir: "Fakt odur ki, Ermənistan tərəfi indiyədək nə 10 noyabr, nə də Soçi bəyanatının tələblərini icra edib. Azərbaycan hər zaman sülhlə bağlı mövqeyini ortaya qoyub, işçi qruplar yaradılıb. İrəvan isə Zəngəzur məsələsində olduğu kimi işçi qruplarla bağlı heç bir müsbət addım atmayıb. Rusiya prosesin irəliyə doğru getməsində maraqlıdırsa, o zaman üçtərəfli bəyanatların icrası üçün Ermənistana daha ciddi təzyiqlər göstərməlidir. Əgər Kreml səmimi olarsa və İrəvana praktiki olaraq təzyiq göstərərsə, sərhədlərin müəyyənləşməsi, o cümlədən sülhlə bağlı irəliləyiş mümkün olar".

**İsmayıl Qocayev**



# Bəzi direktorlar məktəbdə özlərini ağa kimi aparır

## Məktəbdə şagirdin geyiminə irad tutmağın da bir həddi olmalıdır

**6-cı sinif şagirdi məktəb direktoru tərəfindən psixoloji təzyiqə və təhqirə məruz qalıb. Goranboy rayonu Səfikürd kənd orta məktəbinin direktoru Lamiyə Abışova məktəbli ətəyinin yerinə şalvarla gələn şagirdi dərsdən kənarlaşdırıb.**

Bu barədə Bizim.Media-ya şagirdin atası Şəhruz Əsədov məlumat verib.

O, məktəb direktorunun qızı ilə kobud rəftar etdiyini və iki gün ardarda dərsə buraxmadığından gileylənib: "Qızın məktəbli ətəyi yararsız hala düşdüyü üçün şalvarla getməli olub. Direktorun "niyə ətək geyinməmisən" sualına qızım "yoxumdur" deyə cavab verib. O isə qızımı sinif yoldaşlarının yanında aşağılayaraq, "yoxundur, get qonşudan al, ya da nənənin "ştanı"nı geyin" deyə cavab verib və onu dərsdən çıxararaq evə göndərib. Mən direktora zəng edib, "imkanım yoxdur, ay sonunda maaş alanda uşağa yeni geyim alacağam, niyə elə biabırçılıq edirsiniz?" dedim. O isə "bəli, demişəm, uşağına ətək alarsan, sonra məktəbə gələr" cavabını verdi. Bu gün qızım yenə dərsə gedəndə direktor tərəfindən məktəbə buraxılmayıb".

Ata uşağına psixoloji travma yaşadan, onu dərsdən yayındıran direktor barədə tədbir görülməsini istəyir.

Goranboy Rayon Təhsil Şöbəsinin müdir əvəzi Kifayət Rzayeva açıqlamasında məsələdən xəbərdar olduğunu, direktor və valideyndən izahat aldıqlarını deyib.

Məktəb rəhbərinin davranışını "Şərq"ə dəyərləndirən təhsil eksperti Elşən Ramizoğlunun fikrincə, direktorların bir çoxu özlərini ağa kimi aparır, elə bilirlər qarşısındakılar qul, nökərdir: "Bilirsiniz, bundan əvvəl direktorun səs yazısı yayılmışdı. Müəllimləri geyimlərinə görə təhdid edirdi. Sonra ona xəbərdarlıq olundu. Təsəvvür edirsiniz, müəllimləri təhqirlə hədələdi, sadəcə xəbərdarlıq aldı. Xəbərdarlıq intizam tənbehi belə sayılmır. Ümumiyyətlə, qız şagirdlərimizin məktəbə şalvarda gəlməsinə qarşıyam. Ancaq şagirdə irad tutmağın da bir həddi var.

Qul dövranı gedib, bitib, yoxdur artıq elə bir yanaşma. Əksər direktorların arxalandığı kimsə olur. Barmaqla sayılacaq qədər direktor var ki, "kiminsə adamı" deyil. Ona görə də belə hallar tez-tez yaşanır. Geyimə irad tutacam deyə, məsələni bu vəziyyətə gətirmək, şagirdə qarşı anlamsız hərəkət yolverilməzdir. Ancaq cəza tətbiqi yox səviyyəsindədir.

Aidiyyəti şəxslərdən də soruşmaq lazımdır ki, qanun niyə arxasız təhsil işçiləri olanda yada düşür?

Nazirlər Kabineti tərəfindən dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri təsdiqlənib, ancaq 2022-2023-cü tədris ilindən reallaşacaq. Yəni hələ tətbiq edilməyib".

**Aygün Tahir**

# Dnestryanı separatçılar müharibəyə cəlb olunur

## Bu plan Rusiyanın Ukraynanın Qara dəniz sahillərini, xüsusilə də Odessanı ələ keçirməsini tezləşdirə bilər

**Rusiya-Ukrayna müharibəsi Moldova ərazisinə də sıçrayıb. Moldovanın Dnestryanı bölgəsində separatçı respublikanın paytaxtı Tiraspol şəhərində, "dövlət təhlükəsizlik nazirliyi"nin binası yaxınlığında partlayış baş verib. Binaya qumbaraatanlardan atəş açıldığı deyilir. Hadisə sonrasında Moldova Prezidenti Maya Sandu Dnestryanıda baş verən hadisələrlə bağlı Təhlükəsizlik Şurasının iclasını çağırıb.**



Rusiya silahlı bölmələri isə tanınmamış Dnestryanıda tam döyüş hazırlığı vəziyyətinə gətirilib. Hadisənin kim tərəfindən tördildiyi hələlik bəlli olmasa da Rusiyanın təxribatının olması mümkündür. Məsələ ondadır ki, Rusiya ərazisində son günlər baş verən partlayışlar fonunda Dnestryanıda ard-arda partlayışların baş verməsi diqqət çəkir. Bir müddət əvvəl Ukrayna ilə sərhəddə yerləşən Belqoroddakı neft emalı zavodu vuruldu. Düzdür, rəsmi Kiyev hadisəni təkzib etsə də, Rusiya Belqorod neft emalı zavoduna Ukraynaya məxsus iki helikopterin hücum etdiyini bildirdi.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, hadisənin Ukrayna tərəfindən törədilməsi real versiyadır. Çünki daha sonra Bryanskda neft zavodlarının vurulması, Tverdəki Rusiya Hava-Kosmik Müdafiə Qoşunlarının Elmi-Tədqiqat İnstitutunda yanğının baş verməsi, Rusiyadakı meşə yanğınlarının baş verməsi kimi hadisələr də baş verdi:** "Bu, Qərbin dəstəyi ilə rəsmi Kiyevin Rusiya daxilindəki obyektlərə hücumlar etdiyini təsdiqləyir. Kreml baş verənləri öz lehinə çevirmək istəyir. Məsələ ondadır ki, Rusiya-Ukrayna müharibəsində Kremlin əsas hədəflərindən biri məhz Kiyevin qara dəniz bağlantılarını kəsməkdir. Prinsip etibarilə hazırda buna böyük ölçüdə də nail olub. Lakin Rusiyanın bu planı Odessa şəhəri ələ keçirilmədən tamamlana bilməz. Rusiya indiki məqamda məhz Odessanı işğal etmək üçün Dnestryanı separatçılarını müharibəyə cəlb etmək istəyir. Dnestryanının qondarma "təhlükəsizlik xidməti" binasının yaxınlığında baş verən partlayış, daha sonra məhz rus radiodalğalarını yayan iki antenanın məhv edilməsi, ardınca isə hərbi hissədə partlayış Kremli məqsədinə böyük ölçüdə yaxınlaşdırmış oldu. Dnestryanı separatçılarının muharibəyə qoşulması bir neçə aspektdən önəmlidir. Birincisi, yuxarda qeyd etdiyim kimi, Dnestryanı separatçılarının müharibəyə qoşulması Rusiyanın Ukraynanın Qara dəniz sahillərini, xüsusilə də Odessanı ələ keçirməsini tezləşdirə bilər. Şimaldan başlanacaq quru hücumuna Kreml dənizdən dəstək verəcək. Odessanın işğal edilməsi isə Ukraynaya Aralıq dənizindən gələcək yardımların kəsilməsi deməkdir. İkincisi, Kreml Dnestryanı separatçılarını prosesə qoşaraq həm də Ukraynada yeni işğal planlarını reallaşdırmaq istəyir. Məsələ ondadır ki, Rusiya Prezidenti Vladimir Putin çıxışlarının birində qeyd etmişdi ki, Ukraynanın hazırkı bir çox əraziləri məhz SSRİ dövründə ona bağışlanıb".

**Ekspert xatırladıb ki, ötən əsrin 30-cu illərində Rumıniyaya məxsus tarixi Besarabya torpaqları SSRİ tərəfindən ilhaq edilərək daha sonra Ukraynaya birləşdirilib:** "Bu gün tarixi Besarabya torpaqlarının yarısı Moldovaya, yarısı isə Ukraynaya məxsudur. Mümkündür ki, Kreml Dnestryanı separatçılarının müharibəyə qoşulması qarşılığında onlara vaxtilə Ukraynaya verilən Besarabya torpaqlarını vəd edib. Dnestryanı hər nə qədər separatçı respublika olsa da beynəlxalq hüquqa görə, Moldovanın ərazisidir. Bu mənada baş verən partlayışlar həm də rəsmi Kişinyova son xəbərdarlıqdır. Məsələ ondadır ki, Moldovanın qərb meyilli xanım prezidenti Maya Sandu Ukraynaya bir çox sahədə dəstək verir. Xüsusilə ABŞ-dan gələn silahların Moldova ərazisindən keçməsinə şərait yaradır. Kreml isə Moldovanın Ukrayna müharibəsində ən azından neytral qalmasını istəyir. Əks təqdirdə Ukraynadan sonra deyil, elə Ukrayna müharibəsi gedişində Kişinyov Kremlin qəzəbinə tuş gələ bilər. Prinsip etibarilə Kremlin Kişinyova Ukraynadakı kimi hərbi müdaxilə etməsinə ehtiyacı yoxdur. Bunu qaqauzlar və Dnestryanı üzərindən də edə bilər. Məsələ ondadır ki, Dnestryanın Ukrayna müharibəsinə Kremlin yanında qoşulması separatçıların Ukrayna əraziləri hesabına genişlənməsinə və Moldova qarşısında güc qazanmasına gətirib çıxara bilər. Qaqauzlara gəldikdə isə onların ayağa qalxması ehtimalı da yüksəkdir. Kremlin dəstəyi ilə qaqauzların separatçı fəaliyyəti hər an başlaya bilər. Onsuz da son zamanlar təbii qaz məsələsinə görə Kişinyovdan incik düşən qaqauzlar öz müqəddəratını təyin etmək eşqinə düşə bilər. Bu isə Moldova üçün arzuolunmaz senaridir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**




# Zərifə xanımın adı şərəf tarixinə yazılıb

## Onun keçdiyi həyat yolu, elmi və əmək fəaliyyəti hər bir Azərbaycan qadını üçün örnəkdir

**Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ili tamam olur. Zərifə xanım Əliyeva görkəmli elm xadimi, oftalmoloq alim olub.**

Lakin Zərifə xanımı xalqımız ilk növbədə ümummilli lider Heydər Əliyevin sədaqətli həyat yoldaşı, qayğıkeş, mehriban ana, ailə dəyərlərini qoruyan, xalqımıza məxsus yüksək keyfiyyətlərə məxsus alicənab qadın, xeyirxah insan olduğuna görə sevirdi, bu gün də həmin sevgini yaşadır və daim sayğıyla anır. Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü münasibətilə bir neçə gündür ki, ölkəmizdə silsilə tədbirlər keçirilir, xatirəsi ehtiramla yad edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib. Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən rəmzi lenti kəsib. Gəmi-bərənin "Zərifə Əliyeva" adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir. Gəmi-bərədə akademik Zərifə Əliyevanın elmi axtarışlarını, qazandığı uğurları, insanlara xeyirxah münasibətini, bir sözlə, fədakarlıqla dolu həyat və fəaliyyətini əks etdirən guşə yaradılıb. Guşədə akademik M.İ.Averbax adına mükafatın ilk qadın laureatı olan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyeva haqqında foto və video məlumatlar, kitablar toplanıb. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindənsə "Akademik Zərifə Əliyeva 99" adlı virtual sərgi hazırlanıb. Kitabxanadan bildirilib ki, virtual sərgidə akademik Zərifə xanım Əliyeva haqqında görkəmli şəxslərin fikirləri, müəllifi olduğu və haqqında yazılmış kitablar, həyat və fəaliyyətinə dair sənədlər, məqalələr və fotolar nümayiş olunur. Virtual sərgi bu ifadələrlə nümayiş olunur: "Elə şəxsiyyətlər var ki, onların ömür yolu haqqında söhbət açarkən istər-istəməz hansısa tarixi dövrün müəyyən ənənələrinin formalaşması prosesinin də iştirakçısına çevrilmiş olursan. Hər bir millət üçün fəxr olunası haldır ki, mənsub olduğu millətin tarixində unudulmaz şəxslər yaşayıb, yaradıb. Elə şəxslər ki, onların xalqı qarşısındakı xidmətləri əvəzolunmazdır. Belə insanlar kəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. Ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş bu nəcib xanım məhz bütün keyfiyyətlərinə görə hər zaman, hər kəs tərəfindən sevilir, heç vaxt unudulmur. Zərifə xanımın xatirəsinə Səhiyyə Nazirliyi, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin təşəbbüsü ilə "Oftalmologiyanın aktual məsələləri" mövzusunda elmi konfrans keçirilib. Çıxışçılar Azərbaycan oftalmologiyasının inkişafının məhz akademik Zərifə Əliyevanın adı ilə bağlı olduğunu, onun həyat yolu, elmi istiqamətləri, pasiyentlərlə, gənc həkimlərlə davranışının hər kəs üçün örnək olmasından danışıblar. Qeyd edilib ki, görkəmli oftalmoloq-alim Azərbaycan oftalmologiyasını inkişaf etdirib və bütün dünyaya tanıdırıb. Zərifə Əliyeva Sovet İttifaqında yeganə olaraq Azərbaycanda Eksperimental Klinik Laboratoriyanın təşkilinə nail olub. Onun ən böyük arzusu Milli Oftalmologiya Mərkəzinin tikintisi ilə bağlı idi. Akademikin həmin arzusu həyata keçib və 12 il olacaq ki, bu mərkəz fəaliyyət göstərir.

həmin zirvəni qeyri-adi əməksevərliyi, tәmənnasız xeyirxahlığı, fitri istedadı, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Məhz belə insanlardan biri də humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyevadır. Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini verib, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərib. Zərifə xanım özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş ediş, ən ağır, mürəkkəb əməliyyatlar aparıb, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını işıqlandırıb. Bu işdə ona təkcə biliyi, savadı və səriştəsi deyil, həm də gendən və böyüdüyü ailədən irəli gələn yüksək keyfiyyətlər dəstəkçi olurdu. Zərifə xanım Əliyevanın adı bu gün də Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Öl-

**Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət və İdarəetmə Akademiyasının professoru Həvva Məmmədova "Şərq"ə açıqlamasında qeyd etdi ki, Zərifə xanım Əliyeva keçdiyi həyat yolu, elmi və əmək fəaliyyəti ilə hər bir Azərbaycan qadını üçün örnəkdir:**

- Zərifə xanım Əliyevanın adı Azərbaycan tarixinə əbədi həkk olunub. Necə ki, biz bu gün Azərbaycan tarixində silinməz izlər qoymuş Sara xatundan danışırıq, Zərifə xanımın adı da tarixdə şərəfli yer tutur. Və bu gün olduğu kimi 100 il sonra da tarixdə qalacaq, xalqımız tərəfindən hörmətlə anılacaq. Zərifə xanım görkəmli dövlət xadimi, Azərbaycan dövlətçiliyinin xilaskarı Heydər Əliyevin həyat yoldaşı, Qarabağımızın xilaskarı cənab Prezident İlham Əliyevin anasıdır. Biz bu gün Zərifə xanımı həm də buna görə minnətdarlıqla anırıq ki, bu xanımın ailəsində belə övlad böyüyüb. Zərifə xanımın yüksək keyfiyyətlərindən çox danışmaq olar. Mənim üçün dəyərli olan bir məsələni xatırladım ki, vaxtilə anamın gözlərini Zərifə xanım əməliyyat edib. Anamın gözləri iki dəfə əməliyyat olunmuşdu. Həkimlərdən birinin adı Ceyran xanım idi, digəri isə Zərifə xanım olub. O zaman biz Zərifə xanımın hansı ailəyə mənsub olduğunu bilmirdik. İllər sonra bildik. Bu xanım o qədər səmimi, xeyirxah, sadə, təvazökar olub ki, Heydər Əliyev kimi bir siyasi rəhbərin həyat yoldaşı olmasını qabartmayıb, özünü üstün hesab etməyib. Çalışdığı səhiyyə müəssisəsində hamı onun xeyirxahlığının, sadəliyinin vurğunu olub. Çox əliaçıq, səmimi xanım olub. Təsəvvür edin ki, bişirdiyi xörəklərdən gətirib gözətçiyə, ehtiyacı olanlara paylayırmış. Hamıyla səmimi ünsiyyət yaradırmış. Zərifə xanımın kollektivlə birlikdə çəkdirdiyi fotolardan da göründür ki, o necə səmimi, nəcib insan olub. Zərifə xanım adət-ənənəyə bağlı, milli xüsusiyyətləri özündə cəmləmiş və bu xüsusiyyətlərə hər zaman sayğı göstərən əsl Azərbaycan qadını idi. Bu mənada Zərifə xanım bütün həyatı, fəaliyyəti ilə, davranışları ilə örnək bir qadındır. Onun özündən sonra qoyduğu irs bu gün də davam edir. Zərifə xanım Əliyevanın xalqımızın qəlbində müstəsna yeri var və daim xalqın qəlbində qalacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Elmlər Akademiyasını "alverxanaya" çeviriblər

## Cümşüd Nuriyev: "Qohumbazlıq, yerlipərəstlik Azərbaycan elmini pis günə qoyub"

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi-təşkilati fəaliyyətinə həsr olunmuş ümumi yığıncağında ciddi məqamlar gündəmə gətirildi.**

Rəhbərlik başda olmaqla, çıxış edən vitse-prezidentlər, akademiklər AMEA-dakı mövcud problemlərdən bəhs etdilər. Akademiyada bəzi struktur dəyişikliklərinin vacibliyi, fəaliyyətsiz bölmələrin ixtisarı, qurumun hüquqi statusu, gənc elm adamlarının sosial durumu, dəxilsiz adamlara "alim" adının verilməsi və s. məsələlər bağlı tənqidi fikirlər səsləndirildi. Elm ocağında kompleks islahatların zəruri olduğu vurğulandı. Lakin problemlərin çözülməsi üçün ortada modern konsepsiyanın olmadığı bəyan edildi. Xatırladaq ki, son dönəmlər AMEA-dakı neqativ hallar, idarəetmədəki nöqsanlar, korrupsiya faktları sosial şəbəkələrin müzakirə mövzusuna çevrilib. İctimaiyyət nümayəndələrinin fikrincə, elm millətin və dövlətin həm keçmişi, həm də gələcəyidir. İnkişafın əsas lokomotivi elm və innovasiyadır. Əfsuslar olsun ki, Azərbaycan elmi dünyanın və ölkəmizin ümumi inkişaf dinamikasından geri qalmaqdadır. O səbəbdən elm ocağında ciddi islahatlara ehtiyac olduğu vurğulanır.

Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, AMEA-da uzun müddət ədalətsizlik hökm sürüb. Professorun sözlərinə görə, son aylarda vəziyyət nisbətən dəyişsə də, əvvəlki problemlər hələ də qalmaqdadır: "Ümumi yığıncaqda çıxış edən alimlər öz iradlarında haqlı idilər. Amma sual yaranır, niyə Ramiz Mehdiyevin zamanında, ya da ondan öncə həmin problemləri gündəmə gətirmirdilər?! Hamı bilir ki, AMEA daxilindəki problemlər çoxdan yaranıb. Əgər məqsəd problemin həlli yox, "yıxılana balta çalmaqdırsa", bunu doğru saymıram. Qoçaqlıq belə olmur. Alimlər vaxtında "dil açmalıydı". Haqsızlıq, ədalətsizlik qarşısında susqunluq nümayiş etdirmək alimə yaraşmayan hərəkətlərdir. Reallıq odur ki, bu gün "alim" adı ilə Akademiyaya doluşanlar elm ocağındakı problemlərdən şikayət edən məhz həmin alimlərin aspirantları, ya da yerliləridir. AMEA-da traybalizm (idarəetmənin nəsil-tayfa arasında formalaşması -red) çox güclüdür. Qohumbazlıq, yerlipərəstlik Azərbaycan elmini pis günə qoyub. Akademiyanı "alverxanaya" çeviriblər. Gömrükdən şikayət edənlərin də vaxtı ilə bir çox qalmaqallarda hallanıb. Əgər xaricdən gətirilən avadanlıqlar elmi innovativ texnologiyaya aiddirsə, ümumiyyətlə onlardan gömrük vergisi tutulmur. Vergilərin, rüsumların məbləğini Milli Məclis müəyyələşdirir".

> **"Çıxış yolu odur ki, vaxtı ilə AMEA-dan didərgin saldıqları, sürgün etdikləri həqiqi elm adamlarını geri gətirsinlər"**

Professor vurğulayıb ki, əsas məsələ tənqid etdikdən sonra konkret təkliflər verməkdir: "Akademiyada ciddi dəyişikliyə nail olmaq üçün hələ yetərli iradə yoxdir. Qurumun prezidenti vəzifəsini icra edən Akademik Arif Həşimov çox tərbiyəli, ziyalı adamdır. Ramiz Mehdiyevin müsbət əməli varsa, o da Arif Həşimovu irəli çəkməsidir. Ancaq nə qədər ki, Akademiya daxilində elmdən uzaq, məntiqsiz yanaşmalar dolaşır, inkişafdan danışmaq yersizdir. Özümüzü aldatmayaq. AMEA-nın köklü reformlara ehtiyacı var. Yerində olmayan vəzifə sahibləri çoxdur. Elm və ictimaiyyətdən uzaq Akademiya tərəqqi yolunu tuta bilməz. Çıxış yolu odur ki, vaxtı ilə AMEA-dan didərgin saldıqları, sürgün etdikləri həqiqi elm adamlarını geri gətirsinlər. Diplom alış-verişinə, rüşvətə, qohumbazlığa, yerliçiliyə son verilməlidir. Akademiya daxilində elmi yenidən cücərtmək lazımdır. Əks halda elm məbədinin yaşamaq ehtimalı çox aşağıdır".

**İsmayıl Qocayev**

# Sağlam uşaqlarda hepatit riski çox cüzidir

## Mərdan Əliyev: "Evdə də uşaqların gigiyenasına riayət etməsi çox vacibdir"



> **"Uşağı stomatoloji klinikaya apardıqda orda sterilizasiyanın yüksək olmasına diqqət yetirin. Ailədə, evdə hepatitli xəstə varsa, onun iti uclu əşyalarından uşağı uzaq tutun, yəni onun əşyaları ilə uşaq az təmasda olsun"**

**Dünya ölkələrində uşaqlar arasında naməlum hepatit növünə yoluxmalar aşkar edilir. Artıq Böyük Britaniya, Hollandiya, İspaniya, Danimarka, İsrail və ABŞ-da adıçəkilən xəstəliyə yoluxma halları qeydə alınıb.**

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumata əsasən, bu virus Hepatit virusudur və indiyə qədər 11 ölkədə həmin virusa yoluxma halı aşkarlanıb. Avropa Xəstəliklərin Qarşısının Alınması Mərkəzi bəzi xəstələrdə gedişatın ağır olduğunu, hətta qaraciyər transplantasiyasına ehtiyac duyulduğunu bildirib. Məlumatlara görə, ümumi simptomlar kəskin hepatit üçün xarakterikdir. Lakin bu xəstəliyin elmə məlum olan növlərinin heç biri laboratoriya müayinələri zamanı təsdiqini tapmayıb. Böyük Britaniya Səhiyyə Təhlükəsizliyi Təşkilatı (UKHSA) ailələri uşaqlarda sarılıq əlamətlərinə diqqət yetirməyi tövsiyə edib. Hepatitin əlamətləri aşkarlanan uşaqların əksəriyyəti beş yaşından kiçik olanlardır. Uşaqlarda simptomlar arasında ishal, ürəkbulanma və dərinin saralması halları müşahidə edilir.

Rusiyanın Elmi Mərkəzinin rəhbəri, Epidemioloji İnstitututun elmi işçisi Vadim Pokrovski bu hepatitin mənşəyini açıqlayıb. O, ehtimal edir ki, qəfil və kəskin hepatitin səbəbi eyni toksik maddə tərkibli uşaq oyuncaqları ola bilər. Bu oyuncaqlar müxtəlif ölkələrdə satılır, oyuncaqları 3-6 yaş arası uşaqlar ağızlarına apardığı üçün onda olan rəng və ya toksiki maddə qaraciyəri zəhərləyib. Pokrovski buna səbəb kimi koronavirusu əsas gətirməyi yanlış hesab edir. Uşaqların eyni qidanı qəbul etməsi və ya eyni oyuncaqla təması dəqiqləşməlidir. Bu, toksiki təsirdir. Müxtəlif ölkələrdə olduğu üçün eyni qida istisna edilir. Deməli, bir şübhə qalır: oyuncaq.

Qeyd edək ki, rəsmilər hazırda Azərbaycanda bununla bağlı hər hansı bir narahatlığın olmadığını qeyd ediblər.

**İnfeksionist-hepatoloq Mərdan Əliyevin "Şərq"ə açıqlamasına görə, virus hepatitləri bu gün dünyada ən aktual xəstəliklərdəndir.** Bu xəstəlikləri aktual edən onların dünyada geniş yayılması, təhlükəli ağırlaşmalarının olması və ölüm göstəricilərinin yüksək olmasıdır. Hepatit törədən virusların 5 əsas növü (A,B,C,D,E) məlumdur. Bu viruslar hepatotrop xüsusiyyətə malik olduqları və demək olar ki, yalnız hepatit törətdikləri üçün hepatit virusları adlanır. Bunlar arasında isə uşaqlarda Hepatit A, B cə C viruslarına rast gəlinir. Yayılan məlumatlarda isə yayılan hepatit virusunun hansı növə aid olduğu qeyd olunmur. Düzdür, mənşəyi öyrənilməyən hepatit virusları da var, onlardan biri də ola bilər. Sadəcə olaraq, bu məlumatı əsassız hesab edirəm. Xəbərin hansı faktlara, araşdırmalara əsasən yayıldığı dəqiq bilinmir. Ona görə, xəbərin əsassız olma ehtimalı da mümkündür. Hepatitdən başqa herpes və sitomeqalovirus infeksiyası immunitetə zəif olan insanlarda qaraciyər problemləri yarada bilir. Yox əgər doğrudan da uşaqlar arasında naməlum hepatit növünə yoluxmalar aşkar olunubsa, bu, hepatit A, B və C viruslarından biridir. E virusu uşaqlarda olmur, bu ancaq böyük insanlara yoluxur. Hepatit D-yə isə yalnız hepatit B ilə xəstələnmiş insan tutula bilər.

**- Uşaqlar nə zaman hepatitə yoluxur. Hər immuniteti zəif olan uşaq risk qrupuna aiddir?**

- Sağlam uşaqlarda hepatit riski çox cüzidir. Adətən anadangəlmə immun çatışmazlığı, yanaşı xəstəlikləri, onkoloji problemləri olan uşaqlar kimyəvi terapiya aldıqları üçün immunitetləri zəifləyə bilir, AİDS daşıyıcısı olan uşaqlarda hepatitlərin virus törətmə riski yüksəkdir. Nadir hallarda bəzən sağlam uşaqlarda da HERPES və sitomeqalovirus ağır gedişli olub hepatitlər törədə bilir. Qeyd edim ki, uşaqlar B, C və D hepatitlərinə qan və ya qan əvəzediciləri köçürülən zaman, onlara tibbi xidmət göstərilərkən yaxşı dezinfeksiya olunmamış tibbi alətlərdən istifadə olunması yolu ilə yoluxa bilərlər. Evdə də uşaqların gigiyenasına riayət etməsi də çox vacibdir. Uşaqlara başqalarının əşyalarına toxunmamaq öyrədilməlidir. Uşağı stomatoloji klinikaya apardıqda orda sterilizasiyanın yüksək olmasına diqqət yetirin. Ailədə, evdə hepatitli xəstə varsa, onun iti uclu əşyalarından uşağı uzaq tutun, yəni onun əşyaları ilə uşaq az təmasda olsun.

**- Uşaqlarda hepatit müalicə ilə sağalır?**

- Bəli, hepatitlər artıq tam sağalan xəstəlikdir. Yeni birbaşa təsirli antiviral dərmanlar vasitəsilə ağırlaşmamış formalarda virusu tamamilə qandan təmizlənmiş olur. 2 yaşına qədər olan uşaqları sadəcə olaraq nəzarətdə saxlayırıq və qaraciyərdə zədələnmə görünməyənə qədər müalicəyə başlamırıq. 2 yaşdan yuxarı uşaqlarda isə artıq dərman müalicəsinə başlanılır. Burada virusun genotipi, virus yükü, rezistentliyi, qaraciyərin zədələnmə dərəcəsi, xəstəliyin mərhələsi və xəstənin ümumi vəziyyəti nəzərə alınmaqla müvafiq müalicə təyin edilməlidir.

**- Hansı əlamətlərdən şübhələnib hepatit analizləri tələb edirsiniz?**

- Hepatitlər çox hallarda heç bir əlamət vermədən gizli gedir. Simptomlu hallarda yorğunluq, halsızlıq, əzələ ağrıları, sarılıq, iştahanın azalması, ürəkbulanma, qusma kimi əlamətlərin biri və ya bir neçəsi rast gəlinə bilər. Konkret olaraq uşaqlarda isə ultrasəs müayinəsində qaraciyərdə böyümə görünsə, qan azlığında qaraciyər fermentlərində yüksəlmə olarsa, hepatit analizi götürülməsinə ehtiyac var. Rəngi saralan, qarın nahiyəsində səbəbsiz ağrılar olan uşaqlar da hər ehtimala analiz və UZİ-yə göndərilir.

**Şəymən**

# Ailənin qoruyucu obrazı qatil ola bilməz

## “Hər şey sevgisizlikdən irəli gəlir”

**Hər kəs övladlarını xoş həyata hazırlamaq üçün uşağı sevgi dolu bir mühitdə böyütməli, onlara sevildiklərini hiss etdirməlidir. Uşağa hədə-qorxu gəlmək məsələsi həmişə tənqid hədəfinə çevrilib. Lakin bəzi hallarda valideynlərin övladına qarşı şiddət göstərdiyini eşidirik.**

Deyirlər, uşağın atası ilə körpəlikdən başlayan münasibəti onu gələcəyə hazırlayır. Atana uşaqlarını çağırarkən xoş, mehriban, əzizləyici sözlər söyləməlidir. Yoxsa ata 11 aylıq övladını yerə çırparaq ona ağır xəsarətlər yetirməməlidir.

Təəssüf, sözügedən hadisə Yasamalda baş verib.

Uşağın anası olayı danışıb: "Uşağı götürüb yerə atdı. Qonşular gəlib əlindən aldı. Təzədən uşağı qonşunun əlindən alıb yenə yerə çırpdı. Deyir, uşaq mənim deyil, başqasındandır. Bildirir ki, mən yardımla dolanıram, yardıma cadu etmisən. Uşaq ağır travma alıb. Dörd kəllə sümüyü sınıb, gözləri çəpləşib", - deyə ana bildirib.

Qonşuların dediyinə əsasən, kişi övladlarına baxmayıb: "Hərdən bir kefinə düşəndə gəlir, sonra gedir ikinci arvadının yanına. Evə bir qəpik də pul gətirmir".

Qeyd edək ki, hadisəni törədən 30 yaşlı Samir Ağakərimov polis tələfindən şübhəli şəxs qismində tutularaq istintaqa təhvil verilib.



*Narınc Rüstəmova: "Körpənin qayğısına qalmaqda atalar da ana ilə eyni zamanda məsuliyyəti paylaşmağın öhdəsindən gəlməlidilər"*

**Hadisəylə bağlı ”Şərq”ə danışan klinik psixoloq, ”Narınc” Psixologiya Mərkəzinin təsisçi rəhbəri, Psixologiya Elmi-Tədqiqat İnstitutunun ”Yaş və İnkişaf Psixologiyası Şöbəsi”nin kiçik elmi işçisi Narınc Rüstəmovanın sözlərinə görə, hər şey sevgisizlikdən irəli gəlir:** ”Ata bir ailənin qoruyucu obrazıdır. Əgər yoldaşı, övladı özünü onun yanında güvəndə duymursa, ata davranışlarını idarə edə bilmirsə, mütəxəssis yardımı alması vacib nüansdır.

Çox güman, ailədə ilk şiddətyönümlü davranış deyil. Ailənin təməli düzgün qurulmasa, daxilindəki problemlər həllini tapmamış qalarsa, yığılan aqressiya və neqativ enerjinin çox zaman övladlardan ən qəddar şəkildə çıxıldığını görürük. Problem varsa, vaxtında həllini tapmalı, dəstək verilməlidir.

Belə hallar daha çox psixoaktiv maddədən, alkoqoldan yararlanan insanlarda daha çox rast gəlinir. Hətta sonra törətdiyi işin necə baş verdiyini belə xatırlamırlar. Ağır bir situasiyadır. Mütləq ata maddə asılılığına dair yoxlanışdan keçməlidir.

Əsəb partlamaları yaşayan, əsəbinin idarəsində çətinlik çəkən ata və ya anaların azyaşlılara aqressiv davranışlar göstərdiyinin şahidi oluruq. Çox vaxt isə səbəb kimi uşağın ağlaması, özünü pis aparması söylənilir.

Körpələr öz ehtiyaclarını, aclığını, susuzluğunu, yuxusuzluğunu və ya altını batırarsa, ağlamaq formasında diqqətə çatdırırlar. Yeni körpələrdə ağlamaq hallarına tez- tez rast gəlinir və normaldır. Əsəbi, səbrsiz atalar isə buna dözə bilmirlər. Uşağın çox əziyyətini, qayğısını analar çəkir, ancaq bəzi atalar körpəsinin tək bir ağlamağına belə səbrli yanaşmağı bacarmırlar".

**Psixoloqun qənaətincə, qadının hamiləlik müddətində həkim müayinələrinə ata da ana ilə birlikdə getməli, ona mənəvi dəstəyini əsirgəməməlidir:** "Son zamanlarda belə bir tendensiya yaranıb. Atalar da mütləq doğuşda iştirak etməlidirlər. Çünki kənarda qalanda ata durumu tam başa düşmür. Amma doğuşda iştirak ilə ananın necə doğum sancısı çəkdiyini, övladın hansı əziyyətlərlə dünyaya gəldiyini canlı görür.

Körpənin qayğısına qalmaqda atalar da ana ilə eyni zamanda məsuliyyəti paylaşmağın öhdəsindən gəlməlidilər. Hamısı şüuraltı təsir göstərən faktorlardır. Atada uşağa qarşı məhəbbətin emosional bağın yaranmasına kömək edir.

Çox zaman analar ata gecə ayılmasın, sabah işə gedəcək və s. səbəblərdən öz yatağını ayırır. Uşaqla ayrı otaqda qalır, bütün yükü, məsuliyyəti öz boynuna götürür. Əslində yaxşı düşündüyümüzü fikirləşirik, amma yanlış davranırıq. Doğum anını görməsə belə çalışmaq lazımdır ki, övladın böyüdülməsi prosesində ata bu işdən kənarda tutulmasın. Otağı atadan ayırmasın, yeməyi bir dəfə ana hazırlayanda növbəti dəfə də ata hazırlasın, bezini dəyişməkdə köməyini əsirgəməsin. Bütün bunlar atanın övladına sevgisinin yaranması üçün vacibdir. İnsan zəhmət verdiyi, əziyyətini çəkdiyinin dəyərini daha yaxşı anlayır, sevir və qoruyur".

**Aygün Tahir**

## Vüsalə getdi, yerinə İlhamə gəldi



**Aparıcı Vüsalə Kərimova çalışdığı ARB və Azad Azərbaycan televiziyasından ayrılıb.**

Sənətçi bu barədə özü məlumat verib. Bir neçə gün öncə ARB-dəki kollektivlə fotosunu paylaşan Kərimova "yenidən salamlaşmaq üçün vidalaşırıq" sözlərini yazıb. Bu gün isə "Xoş beş" verilişində efirə çıxmayıb. Onun əvəzinə aparıcı İlhamə Bədəlova və aktyor Məcid Hüseynov gətirilib. Vüsalə bununla bağlı sosial media hesabında paylaşım edib:

"Sizə uğurlar olsun, həyatım! Sən yaxşı dost və peşəkar insansan. Ümid edirəm mənə qoyulan qadağalar sənə qoyulmaz", - deyə, Kərimova yazıb.

*Qeyd edək ki, İ.Bədəlova eyni zamanda "Həkimsən" proqramında da aparıcılıq edir.*

**”Nar” abunəçilərinin diqqətinə!**

10.05.2022 tarixindən etibarən "Yerlim" tarifinin şərtlərində dəyişiklik olacaq. Daha ətraflı məlumat nar.az saytında yerləşdirilib.

**Elan**

Azərbaycan Ordusu Təlim və Tədris Mərkəzi tərəfindən Həşimli Mərahim Əflatun oğlunun adına verilmiş № 0051520 saylı hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Universitetinin 1-ci kurs tələbəsi Haşımov Pərvin Pərviz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əlimərdanova Zeynəb Salman qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**




## Azercell-dən 010 seriyalı gözəl nömrələr!

Lider mobil operator müştərilərə eksklüziv seriyalara sahib olmaq şansını yaradır

**Ötən ilin noyabr ayında ”Yeni 010 nömrələri - Qaliblərin seçimi!” şüarı altında hər kəsin çoxdan gözlədiyi yeni prefiksi istifadəyə verməş ”Azercell Telekom”abunəçilərin zövqlərini oxşayan yeni nömrələri satışa çıxarıb.**

Beləliklə, 27 aprel 2022-ci il tarixindən etibarən hər kəs "010" prefiksli 3, 4 və 5 rəqəmləri ilə başlayan gözəl nömrələri seçərək əldə edə bilər. Müştərilər hazırda satışda olan nömrələr barədə daha ətraflı şəkildəwww.azercellim.com veb-səhifəsi vasitəsilə tanış ola bilərlər. Bu səhifə istifadəçilərə istədikləri nömrəni qısa müddət ərzində axtarıb tapmağa, onlayn ödəniş etməklə rahat şəkildə rəsmiləşdirməyə imkan yaradır.

Xatırladaq ki, Azercell şirkəti "010" prefiksli yeni nömrələri Vətən müharibəsində əldə etdiyimiz qələbənin ilk ildönümünün şərəfinə mobil rabitə bazarına təqdim edib. Qeyd edək ki, www.azercellim.com saytı iri miqyasda nömrə sifarişini onlayn rejimdə gerçəkləşdirən ilk belə platformadır.

Öz müştəriləri üçün daha rahat bağlantını təmin etməyi və rəqəmsal xidmətlərin daha əlçatan olmasını hədəfləyən Azercell şirkəti yeni "010" nömrələrinə sahib olacaq abunəçilərinə yalnız xoş xəbərlər almağı arzu edir.

# "TikTok" fenomeni olmaq istəyənlər təhlükə mənbəyidir

## İnsanlar layk yığmaq, ana səhifəyə düşmək üçün yüz oyundan çıxırlar

**Metronun ”20 yanvar” stansiyasında platformadan relslərin üzərinə tullanaraq, tunel istiqamətinə qaçan qızlar sərbəst buraxılıb.**

Müəyyən edilib ki, yetkinlik yaşına çatmayan qızlar iki bacıdır. İlkin araşdırmalar zamanı məlum olub ki, qızlar tuneldə "TikTok" sosial şəbəkəsində video çəkib, paylaşmağı planlaşdırıblar. Onlar qatarın yaxınlaşdığı anda qaça-qaça video çəkərək, həmin görüntüləri səhifələrində yerləşdirməyi düşünüblər. Lakin qızlar tunel istiqamətinə qaçan zaman dərhal saxlanılıblar. Bakı Metropoliteninin Polis İdarəsinə aparılıblar. İdarədə qızların şəxsiyyəti müəyyən edilib. Məlum olub ki, onlar Sumqayıtda yaşayırlar və ataları Türkiyə vətəndaşı İ.K-dır. Qızların valideyni idarəyə çağırılıb, daha sonra onların izahatları alınaraq, sərbəst buraxılıblar.

Xatırladaq ki, hadisə zamanı dərhal "20 Yanvar-İnşaatçılar" mənzilindən yüksək gərginlik çıxarılıb. Stansiya növbətçisi və polis əməkdaşının səyi nəticəsində hər iki sərnişin yaxalanıb. Təhlükəsiz şəraitdə müşayiətlə "20 Yanvar" stansiyasına çıxarılıb. Qatarların hərəkəti bərpa olunub. Bu hadisə səbəbindən xətlərdə ümumən 6 dəqiqə yubanma yaranıb.

Son zamanlar "TikTok" istifadəçilərinin sayı xeyli artıb. Böyükdən kiçiyə vaxtlarının çox hissəsini orada keçirirlər. Oraya daxil olanları, videolar çəkənləri tənqid edənlər də olur. Cəmiyyətin digər hissəsi isə əyləncə, bilgilənmə məqsədi də bura baş vururlar. Hətta informasiyaları, xəbərləri oradan aldığını deyənlərə də rast gəlibilərik. "TikTok" platformasına keçid o qədər artıb ki, insanlar layk yığmaq, ana səhifəyə düşmək üçün daha bilmirlər fərqli nə etsinlər. Qeyri-adi yollara əl ataraq, "TikTok" fenomeni olmağı arzulayırlar. Hələ orada canlı bağlantılar açaraq, pul qazanmaq sevdası da var. Qızların belə addım atması isə təbii ki, ağlasığmazdır. Həyatlarını təhlükəyə atıblar. Öz canlarının uçuruma yuvarlamaqla yanaşı, ətrafdakı insanların da rifahına manеə törədirlər. Hər kəs ictimaiyyət arasında davranış qaydalarını bilməli, onlara əməl etməlidir ki, faciəvi sonluqlara şahidlik etməyək.



*"Bu hələ inkişafın pik nöqtəsi deyil. Bundan sonrakı illərdə sosial şəbəkələrin hansı səviyyədə inkişaf edəcəyini, hansı həddə gəlib çatacağını bilmirik"*

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında bildirib ki, texnologiyaların inkişafı, onlayn platformaların geniş vüsət alması, sosial şəbəkələrdən aktiv istifadəsinin müsbət olduğu kimi, mənfi tərəfləri də artıq özünü göstərir:**

"Belə hərəkətlərin təhlükələri barədə yaxşı olardı ki, insanlar kiçik yaşlarından orta məktəblərdə, ibtidai siniflərdən məlumatlandırılsınlar. Artıq təhsilin ilk pilləsində oxuyan şagirdlərin əksəriyyətinin mobil telefonları var, sosial şəbəkələrə çıxışları mövcuddur. Ona görə də uşaqlara bununla bağlı müəyyən təlimatlar, təhlükəsizlik öyrədilməlidir. Azyaşlıların cəmiyyətdə faydalı vətəndaş kimi yetişməsində bilgiləndirici məşğələlərə cəlb olunma ehtiyacı duyulur. Təbii ki, valideynlərin də üzərinə böyük məsuliyyət düşür. Onlar uşaqların maraq dairələrini müəyyənləşdirməli, rəsm, idman, musiqi kimi sahələrə yönəltməlidirlər. Sosial şəbəkələrin bəzən təhlükəli olduğunu da izah etsinlər. Əks təqdirdə nə qədər maarifləndirmə aparılsa da, televiziyalarda, qəzetlərdə, saytlarda məlumatlandırıcı xəbərlər, məqalələr dərc olunsa da, xeyri olmaz. Bunu ancaq valideynlər sayəsində və orta məktəblərdə profilaktik tədbirlər, təlimlərin təşkili ilə aşılamaq mümkündür. Nəzərə almaq lazımdır ki, bu hələ inkişafın pik nöqtəsi deyil. Bundan sonrakı illərdə sosial şəbəkələrin hansı səviyyədə inkişaf edəcəyini, hansı həddə gəlib çatacağını bilmirik. Əgər proqramlaşdırılmış bir sistem olmasa, təbii ki, təhlükələr daha da genişlənmiş olar".

**Sücayət Mehti**

# "AZERCELL CUP" müsabiqəsinin qalibləri mükafatlandırıldı

## Proqramlaşdırma üzrə müsabiqənin gənc qalibləri Azercell Plazada təltif edildi

**Aprel ayının 27-si ”Azercell Telekom” MMC və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində təşkil edilən ”AZERCELL CUP” müsabiqəsinin qalibləri ilə görüş keçirildi. 300-dən çox 5-7-ci sinif şagirdlərinin qatıldığı müsabiqədə informatika fənni üzrə xüsusi bilikləri ilə fərqlənərək birinci, ikinci və üçüncü yeri qazanan 21 iştirakçı lider mobil operator tərəfindən sertifikatlar və dəyərli hədiyyələr ilə təltif edildi.**

Mükafatlandırma mərasimi ”Azercell Telekom” MMC-nin rəhbər heyəti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Təhsil İnstitutunun rəsmilərinin iştirakı ilə baş tutdu.

Tədbirin açılışını edən Azercell-in Media ilə əlaqələr üzrə direktoru Nigar Şıxlinskaya qalibləri təbrik edərək gənclərin elmi potensialının aşkar edilməsinə və inkişafına yönələn bu təşəbbüsün Azercell üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladı: ”İKTmüasir həyatın bütün aspektlərini əhatə edir, həm insanlar,



həm də cihazlar arasında qarşılıqlı fəaliyyət, ünsiyyət, informasiya əldə etmək üçün yeni, daha sürətli yollar təqdim edir. İKT sahəsi üzrə mütəxəssislərin yetişdirilməsi, rəqəmsal texnologiyalara, informatika elminə maraq göstərən, alqoritmik düşünmə qabiliyyəti ilə fərqlənən şagird və tələbələrin inkişaf etdirilməsi Azercell-in sosial məsuliyyət strategiyasının vacib istiqamətlərindəndir. 2017-ci ildən etibarən Azercell Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı qismində məktəblilərimizin müxtəlif miqyaslı beynəlxalq olimpiada və müsabiqələrə hazırlıq prosesinə dəstək olur. Şagirdlərimizlə qürur duyur, onlara topladıqları biliklərin uğurla nümayiş etdirməyi arzu edirik!".

Sözügedən müddətdə məktəblilərimiz müxtəlif miqyaslı olimpiada və müsabiqələrdə uğurla çıxış edərək 1 qızıl, 10 gümüş, 23 bürünc olmaqla, ümumilikdə 34 medal əldə ediblər.

Ümumi təhsilin təşkili və idarəolunması sektorunun rəhbəri Fuad Qarayev bu layihənin gerçəkləşməsinə göstərdiyi dəstək üçün Azercell şirkətinə öz təşəkkürünü bildirərək ümumtəhsil müəssisələrində dövlət və özəl əməkdaşlığının əhəmiyyətini vurğuladı. Tədbirin rəsmi hissəsindən sonra Azercell Plazada şagirdlər üçün ekskursiya proqramı da təşkil edildi. Məktəblilər şirkətin ayrı-ayrı şöbələrinin fəaliyyəti ilə yaxından tanış olub, onları maraqlandıran sualları Azercell əməkdaşlarına ünvanladılar.

Xatırladaq ki, ötən ilin iyun ayında start verilən "AZERCELL CUP" proqramlaşdırma üzrə iki mərhələli müsabiqə lider mobil operatorun 25 illik yubileyinə həsr olunmuşdur. ADA universitetində baş tutan final turunda 5 alqoritmik məsələnin həlli üçün 3 saat vaxt təqdim edilmişdir. Nəticədə 4 şagird birinci, 7 şagird ikinci və 10 şagird isə üçüncü yeri qazanmış oldu.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun i müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1186




## Amir üçün 2 milyon manat yığıldı

**ATV-də yayımlanan "Bizimləsən" verilişində SMA xəstəliyindən əziyyət çəkən 1 yaşlı Amir Tağıyev üçün 2 milyon manatdan çox ianə yığılıb.**

Bu barədə verilişin aparıcısı Zaur Baxşəliyev məlumat yayıb.

Qeyd edək ki, Amirin sağalması üçün ona vurulmalı olan "Zolgensma" iynəsinin qiyməti 2 milyon 200 min dollardır.

*Amir üçün dəstək olmaq istəyənlər "MilliÖn" və "E-Manat" terminalları ilə bu bank hesabına pul köçürə bilərlər: Kapital Bank - 4169 7377 0767 9540*

## Türkiyə bir pillə yüksəldi

Ən çox qızıl ehtiyatına malik ölkə ABŞ-dır



**Dünya Qızıl Konseyi (World Gold Council-WGC) ən çox qızıl ehtiyatına malik ölkələri sıralayıb.**

İlk 40 pillədə Türkiyə 14-cü sıradan 13-cü sıraya yüksəlib. Və dünənədək önündə gedən Tayvanı arxada qoyub. "Milliyet.com.tr" xəbər verir ki, DQK-nin hesabatına görə, hazırda Türkiyənin qızıl ehtiyatı 431,1 tondur. Siyahıya 8.133.5 ton qızılla ABŞ liderlik edir. İkinci sırada Almaniya, üçüncü isə BVF-dir. İlk üçlükdə hələ ki, dəyişiklik yoxdur. Rusiya 6-cı sıradadır. Qazaxıstan, Özbəkistan, hətta Səudiyyə Ərəbistanı da Türkiyədən sonra qərarlaşıb. Sonuncu - 40-cı pillədə İraqdır.

**Məlahət**

## Dünyanın ən böyük mavi almazı 8 dəqiqəyə satıldı

### Hərraca telefonla qoşulan alıcının adı məxfi saxlanılıb



**Dünyanın ən böyük mavi almazı "Sotheby's" hərrac evinin Honq Konq filialında satılıb.**

**Axşam.az xəbər verir ki, "The De Beers Cullinan Blue" adlı almaz 8 dəqiqə içində yeni alıcısını tapıb. Hərraca telefonla qoşulan alıcının adı məxfi saxlanılıb.**

**Mavi almaz 57,5 milyon dollara qarşılığında yeni sahibinə təqdim olunub.**

***Qeyd edək ki, almaz 2021-ci ildə Cənubi Afrikadakı Cullinan mədənində tapılıb. Daş dünyada 10 əyyarlıq beş almazdan biridir.***

## Hacı 67 ildir çimmir

### Azərbaycanlı Ginnesin Rekordlar Kitabına düşdü



**Dünyanın ən çirkli insanı 87 yaşlı Amu Hacı seçilib.**

**Lent.az xəbər verir ki, Cənubi Azərbaycandan olan Hacı 67 ildir çimmir.**

**Məlumata görə, o, Cənubi Azərbaycanın Dejqa kəndində kiçik bir daxmada yaşayır. Amu ölü heyvanların ətini yeməyə üstünlük verir. Xüsusən kirpi ətini yeməyi çox sevir. O, siqaret çəkməyi sevsə də, tütün əvəzinə quru peyindən istifadə edir.**

***Qeyd edək ki, azərbaycanlı Amu Hacı dünyanın ən çirkli insanı kimi Ginnesin Rekordlar Kitabına düşüb.***

## “Axmaqdırlar"

### Ledi Qaqa rusları təhqir etdi



**Amerikalı müğənni Ledi Qaqa Las-Veqasdakı konsertində mahnılar arasında fasilədə dünyada baş verən hadisələrə münasibət bildirib.**

**Bakupost.az xəbər verir ki, müğənni Rusiyadan olan fanatları barədə təhqiredici ifadə işlədib.**

**"Onlar kütbeyindir, axmaqdır, elə də qalacaqlar", - deyib.**

**Ledi Qaqa bəyan edib ki, Rusiya hökuməti onu həbs etmək fürsətini əldən qaçırıb:**

**"Gərək mən Rusiyada olanda həbs edərdilər, indi gecdir".**

**Bununla onun bir daha Rusiyaya gəlməyəcəyinə eyham vurduğu bildirilir.**

**Bu çıxışdan sonra Rusiya fanatları müğənninin səhifəsinə təhqiredici cavabla hücuma keçiblər.**





# Nə baş verir?

## 6 rus oliqarxın şübhəli ölümü dünya mediasında gündəm olub

**Rusiyanın Ukraynaya hərbi təcavüzündən bu yana rus oliqarxların və ailə üzvlərinin sirli ölümləri dünya mediasında səhifələnir. "Şərq" "Milliyet.com"a istinadən xəbəri paylaşaraq bildirir ki, vəfat edənlər bank, enerji sektoruna rəhbərlik etmiş, ya da mədən sənayesi şirkətlərinin zəngin səhmdarları olan, iqtidara yaxın ruslardır.**

Bəzilərinin ailə üzvlərinin də vəfat etməsi burada sirr pərdəsi olduğu ehtimalını artırır. Təbii qaz şirkəti "Novatek"in direktor müavini, rus oliqarx Sergey Protosenya ötən həftə İspaniyanın Kataloniya sahilindəki villasında asılmış vəziyyətdə tapıldı. Həyat yoldaşı Natalya və qızı Mariyanın da cəsədləri villada tapıldı. Hər ikisi bıçaqlanaraq öldürülmüşdü. Ailə Pasxa bayramını qeyd etmək üçün İspaniyaya gedib, lüks villa kirayələyibmiş. İspaniya polisi oliqarxın həyat yoldaşını və qızını öldürdükdən sonra özünü asdığından şübhələnir. Lakin hadisə baş verən zaman Fransada olan oliqarxın oğlu Fyodor atasının belə bir qətlə imza ata biləcəyini qəti rədd edərək: "Atam anamı da, bacımı da çox sevirdi. Onlara heç vaxt zərər verə bilməzdi. Atam qatil ola bilməz. O gecə başqa hadisələrin olduğunu düşünürəm", deyib. Bu hadisədən iki gün əvvəlsə "Qazprom"un baş direktorunun sabiq köməkçisi Vladislav Avayev, həyat yoldaşı və 13 yaşlı qızının cəsədləri Moskvadakı mənzillərində tapılıb. Hər üçünün tapançadan açılan atəşlə öldürüldüyü məlum olub. Avayev üçün də ailəsini öldürəcək keyfiyyətlərə malik olmadığı deyilir. İstintaq "cinayət-intihar" versiyası üzərində dayanır. İki oliqarxın əvvəlcə ailə üzvlərini, sonra da özlərini öldürmələri əvvəlcədən düşünülmüş qurğu senarisinə bənzəyir. "Medstom" şirkətinin sahibi, milyarder Vasili Melnikov da mart ayında Nijni Novqorod şəhərindəki evində həyat yoldaşı və iki oğlu ilə birlikdə ölü tapılıb. Dördündə də bıçaq yaraları varmış. Sanki kimsə oliqarxlar arasında cinayət-intiharların "dəb" halını aldığına inandırmağa çalışır. Neft və qaz "kralı" kimi tanınan Mixail Vatford - Mişa da İngiltərədəki evinin qarajında asılı vəziyyətdə tapıldı. Fərq bundadır ki, Mişanın həyat yoldaşı və övladlarına zərər toxunmamışdı. Vaxtilə "Qazprom"un idarə heyətində təmsil olunmuş 61 yaşlı Aleksandr Tyulyakov və Leonid Şulman da Sankt-Peterburqdakı mənzillərində ölü tapılıb. 6 oliqarxın bir-birinə çox bənzəyən ölümlərinin sirri açılacaqmı?


Sergey Protosenya ve ailesi... Bu mutluluk fotoğrafından sadece sol baştaki oğlu hayatta kaldı.

**Hazırladı: Məlahət**



# Ev sahibinin bəxti gətirdi

## Hamı belə şanslı olmur

**Kaliforniyanın South Lake Tahoe əyalətinin sakini döşəmənin altından gələn qəribə səslərin mənbəyini tapmaq üçün mənzilə təhlükəsizlik məsələləri ilə məşğul olan xüsusi qrup çağırıb. Mənzildə araşdırma aparan qrup qeyri-adi səslərin nədən qaynaqlandığını nəhayət ki, üzə çıxarıb.**



### *Zirzəmiyə sığınan ayı və balaları qış yuxusundan ayıldı və heç kimə zərər vermədi*

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, mənzilin sahibi bir neçə gün döşəmə altından mırıltıya oxşar səslər gəldiyini fərq edib. Qonşulardan "siz də qəribə səslər eşidirsinizmi?" soruşub. Lakin "yox" cavabı alıb. Bölgədə bundan öncə də bir neçə ayının mənzillərə, mağazalara basqın etdiyini xatırlayan ev sahibi zirzəmidə ayı ola biləcəyindən şübhələnib. Mənzilə gələn təhlükəsizlik qrupu zirzəmiyə fənər tutduqda parıldayan gözlər görüblər. Zirzəmidə ayı balaları olduğuna şübhə qalmayıb. Balaları oradan necə çıxaracaqlarını düşünüblər və onlara qida gətiriblər. Qidanı görən ayı balaları başlarını zirzəmidən yavaş-yavaş çıxarıblar. Məlum olub ki, ana ayı da zirzəmidədir və 5 balası var. Qrupun taktikası işə yarayıb və ayılar zirzəmidən çıxıb. Qrupun icraçı direktoru Ann Bryant deyib ki, böyük ehtimalla ayı balalarıyla birlikdə dekabr ayından zirzəmiyə sığınıb və qış yuxusuna gedniblər. Ev sahibinin bəxti gətirib ki, ayılar nə ona xəsarət yetirib, nə də mənzilə zərər vurub. Hamı belə şanslı olmur. Məsələn, kaliforniyalı bir qadın şimaldakı Tahoe Gölü yaxınlığındakı mənzilində ayının hücumuna məruz qalıb. Ann Bryant "Hank the Tank" adlı, 500 kiloqram ağırlığındakı ayının aylardır küçələrdə dolaşaraq qida axtardığını söyləyib. Ayılar dəfələrlə mağazalara daxil olub ərzaqları dağıdıb. Bu, ayıların qida qıtlığı yaşamasının təzahürüdür. Təbiətdə özlərinə uyğun məskən tapa bilməyən ayılar isinmək üçün evlərin zirzəmilərinə, hətta mənzillərə də basqın edir. Qrup rəhbəri bununla bağlı sakinlərə xəbərdarlıq edildiyini də söyləyib.

**Məlahət**

# Uşaq təsadüfən içki içərsə, nə etməli?

## Bol maye, adi su verib, həkimə çatdırmaq lazımdır



**Əgər körpə və ya azyaşlı uşaq gözdən yayınıb alkoqollu içki içərsə, valideynlər hansı yardımı göstərməlidir?**

Bakupost xəbər verir ki, pediatr Yeqor Qavruşkin uşağa bol maye, adi su verib, həkimə çatdırmağı tövsiyə edir.

Alkoqolun dozasından asılı olaraq, uşaq orqanizminə düşdükdə şəkərin səviyyəsini salır, intoksikasiya, qıcolma, psixoz yaradır.

Əgər içkinin dərəcəsi 4-5d-dən çox deyilsə, ciddi pozulmalar olmaya bilər. Uşaqda nitqin pozulması, ürəkbulanma, qusma, yuxululuq əlamətləri olarsa, təcili həkimə çatdırılmalıdır.

# 300 dollarlıq konfet və 15 dollarlıq peçenye

## II Elizabetin sevimli yeməkləridir





**Kraliça II Elizabet 70 illik hakimiyyəti dövründə, xüsusən də gündəlik işləri ilə bağlı bir çox vərdişlərə sahib olmuş bir insandır.**

Oxu.az xəbər verir ki, ülyahəzrət hər səhər eyni vaxtda oyanır və eyni qrafikə uyğun hərəkət edir. Yuxudan oyandığı zaman ilk gördüyü işlərdən biri şəkərsiz və südsüz, berqamot ətirli bir fincan "Earl Grey" çayı içməkdir. Desert üçün isə kral ailəsinin keçmiş aşpazı Darren Makqredinin dediyinə görə, kraliça "British Chocolate Bath Olivers" və "Pink Champagne Truffles"a üstünlük verir.

"Bu, xırtıldayan, vam odda bişmiş peçenyelərin üzərinə gəzdirilmiş bol tünd şokolad - tərkibi mayaotu, səməni və əlbəttə ki, tünd şokoladdan ibarət olan, 1930-cu illərin patentləşdirilmiş reseptindən istifadə etməklə hazırlanmış dadlı biskvit delikatesidir", - deyə aşpaz bu məhsulu təsvir edib.

Yeri gəlmişkən, "kral" peçenyeləri elə də ucuz deyil, 200 qramlıq qablaşdırma Böyük Britaniyada sizə təxminən 14 dollara başa gələcək. Məlumdur ki, kraliça şirniyyatı çox sevir və yaxınları onu hətta "şokoqolik" kimi də qələmə verirlər.

"Ülyahəzrət tam bir şokolad həvəskarıdır. Tərkibində şokolad varsa, menyuya daxil etdiyimiz hər şeyə, xüsusilə də şokoladlı piroqa razılığını verirdi", - deyə Bukingem sarayının keçmiş əməkdaşları qeyd ediblər.